AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 MAY 2019-cu il BAZAR № 103 (6430) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*









***Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.***

***Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev Fondunun əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.***

***Dövlətimizin başçısı mərasimdə nitq söylədi.***

## Prezident İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni, o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır.

**(davamı 2-ci səhifədə)**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*





**(əvvəli 1-ci səhifədə)**

Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu kommunist partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni, bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında gördü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də Ulu Öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. “Əsrin kontraktı”nın imzalanması əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir - insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə “Əsrin kontraktı” yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni, bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr onu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə müəyyən edir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni, bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur və biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən dünya miqyasında ordu potensialına görə 50 ölkə arasındadır. Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan böyük dərəcədə asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsinlər və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, ilk neftdən Azərbaycan Dövlət Neft Fonduna daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər yüzdən çox şəhərcik salınıb, 100 minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Biz bu illərdə digər sosial layihələri uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni, islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait, sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə ki, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15-20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir və biz buna hazır olmalıyıq. Ona görə hər bir məsələ ilə bağlı biz çox operativ və çevik fəaliyyət göstərməliyik və göstəririk. Ölkəmizin maraqlarını müdafiə etməliyik. Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Ancaq deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur, ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni, sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza 1990-cı illərin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı 1990-cı illərdə bərbad vəziyyətə qoydular, həmin dəstələr yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin dörd ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu, bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, Ulu Öndərin doğum günü ərəfəsində ilk DOST Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır. Necə ki, vaxtilə “ASAN xidmət” mərkəzi ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan “ASAN xidmət”dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda Fərman imzalanıb. İndi əməli işlər aparılır ki, Fərmanın icra edilməsinə başlansın. Bu da bir ciddi islahat olacaq. İcbari tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilibdir və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaq. Bu, həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz qabağa baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar var.

Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni, ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni Fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun!

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı Sərəncamı oxundu.

**Prezident İlham Əliyev dedi:**

- Xoşbəxt müəllimdə Azərbaycan dövlətinin və ovaxtkı Sovet İttifaqının demək olar ki, bütün mükafatları var və buna öz əməyi ilə layiq görülüb. İndi təkcə bu mükafat qalmışdı, bunu da bu gün təqdim edəcəyik. Azərbaycanda elə bir adam yoxdur ki, Xoşbəxt müəllimi sevməsin, ona hörmət göstərməsin. O, neftçilərin simvoludur. O, ən təcrübəli, bilikli, qayğıkeş, əsl Azərbaycan ziyalısıdır, Azərbaycan geoloqudur, Azərbaycan neftçisidir. Biz Xoşbəxt müəllimlə fəxr edirik, gəlin, onu alqışlayaq.

Onu da bildirmək istəyirəm ki, mən Neft Şirkətində çalışdığım dövrdə Xoşbəxt müəllimlə qonşu idik, ikimizin bir qəbul otağı var idi. Biz demək olar ki, hər gün görüşürdük, söhbətləşirdik. Xoşbəxt müəllimin çox gözəl söhbətləri var. O, gözəl tarixi hadisələri yadda saxlayır. Bu gün böyük məmnunluq hissi ilə mən bu yüksək mükafatı Xoşbəxt müəllimə təqdim edirəm.

**(davamı 3-cü səhifədə)**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*













**(əvvəli 2-ci səhifədə)**

Dövlətimizin başçısı Heydər Əliyev Mükafatını akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi.

**Mükafata görə təşəkkürünü bildirən Xoşbəxt Yusifzadə dedi:**

- Çox sürprizlər görmüşdüm, amma bugünkü mükafat mənim üçün lap gözlənilməz oldu. Heydər Əliyev cənablarının anadan olan günündə mənə bu mükafatın verilməsi bir daha onu göstərir ki, doğrudan da mən xoşbəxt adamam. Ötən 67 ildə neft sənayesində nəyə nail olmuşamsa, hamısını Heydər Əliyev cənablarının rəhbərliyi altında əldə etmişəm. Cənab Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə təkcə mənə yox, bütün neftçilərə, neft sənayesinə böyük qayğı göstərib. Hamınız bilirsiniz ki, Ulu Öndər yenidən hakimiyyətə gələndə respublikada iqtisadi vəziyyət çox ağır idi və onu tez bir zamanda düzəltmək mümkün deyildi. Ancaq cənab Heydər Əliyev bilirdi ki, Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayesini inkişaf etdirmək lazımdır. Odur ki, bütün gücünü neft sənayesinə yönəltdi. Prezident İlham Əliyev burada "Əsrin müqaviləsi"ndən danışdı. Bu il "Əsrin müqaviləsi"nin 25 ili tamam olacaq. Bu müqavilə heç də asan başa gəlməyib, 1994-cü ildə biz ay yarım Hyustonda olduq, müqaviləyə istəyimizə uyğun qol çəkdirmək üçün çox əzablar çəkdik. Bu müqavilə, həqiqətən, Heydər Əliyevin şah əsəridir. Bu müqavilə ilə bağlı üç məqamı qeyd etmək istəyirəm. Birincisi odur ki, bu müqavilə imzalanandan sonra bütün dövlətlər, bütün şirkətlər başa düşdülər ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç də təsadüfi deyil ki, bundan sonra 34 müqavilə də imzalandı. İkincisi, "Əsrin müqavilə"sinin ən böyük əhəmiyyəti o oldu ki, 1997-ci ildə Azərbaycanda neft hasilatının səviyyəsi 9 milyon tona, 2010-cu ildə isə 51 milyon tona çatdı. Mən onu demək istəyirəm ki, bütün bunların hamısı Heydər Əliyevin xidmətlərinin nəticəsidir. Bu günə qədər "Azəri-Çıraq-Günəşli" yatağından 481 milyon ton neft hasil olunub ki, bunun da 279 milyon tonu mənfəət neftidir. Həmin o mənfəət neftidir ki, Azərbaycanın bugünkü inkişafını təmin edib.

Ulu Öndərin ikinci şah əsəri Bakı-Tbilisi-Ceyhan neft kəməri oldu. Mən rəqəmlər söyləmək istəyirəm, Azərbaycandan xaricə nəql olunan 503 milyon ton neftin 383 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri ilə daşınıb. Əgər bu kəmər olmasaydı, bu neft xaricə necə çıxarıla bilərdi?

"Şahdəniz" Heydər Əliyevin üçüncü böyük əsəridir. "Şahdəniz"ə də mane olanlar var idi. Amma cənab Heydər Əliyevin rəhbərliyi ilə bu layihə də həyata keçdi. İndi onun bəhrəsini biz hər yerdə görürük. Dahi Heydər Əliyevin yolunu indi cənab Prezident İlham Əliyev davam etdirir. Heydər Əliyev cənablarının əsasını qoyduğu strategiyanı cənab İlham Əliyev çox uğurla davam etdirir. Bu gün Azərbaycanın nailiyyətlərini saymaqla qurtarmaq olmaz. Necə



deyərlər, 10-15 il Azərbaycanda olmayan adam gəlib görsə, tanımaz. Təkcə Bakı deyil, bütün rayonlar müasirləşib. Nə qədər yollar çəkilib, nə qədər məktəblər, nə qədər tibb müəssisələri tikilib. Qısa bir vaxtda bu qədər işin görülməsi doğrudan da böyük nailiyyətdir. Elə neft sənayesinin özü də çox inkişaf edib. Cənub Qaz Dəhlizi, TANAP, STAR neft emalı zavodu, Sumqayıtda yeni zavodlar neft sənayesində əldə olunan nailiyyətlərdir. Bunların hamısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Cənab İlham Əliyev neft sənayesinin çətinliklərini çox yaxşı bilir, çünki 10 il bizimlə çiyin-çiyinə çalışıb. Buna görə də o, neftçilərə həmişə diqqət və qayğı ilə yanaşır. Allah onun ömrünü uzun, canını sağ eləsin, elə eləsin ki, Azərbaycan daha da irəli getsin.

Mən burada Birinci vitse-prezident Mehriban xanım haqqında da bir-iki kəlmə söz demək istəyirəm. Biz 1994-cü ildə Hyustonda olanda Mehriban xanım da bizimlə idi. Bir yerdə nahar edirdik. Bizə məsləhət verirdi, bunu belə edin, bunu elə edin, buna belə baxın. Ən vacibi isə o idi ki, biz gedəndə arxamızca su atırdı ki, işimiz uğurlu olsun.

**Prezident İlham Əliyev:** Yemək də bişirirdi.

**Xoşbəxt Yusifzadə:** Kim deyə bilər Mehriban xanımın bişirdiyi yeməyi yeyib? Mən yemişəm. Özü də çox dadlı bişirirdi.

Mən 67 ildir neft sənayesində işləyirəm. Azərbaycanın inkişafı Heydər Əliyevlə başladı, indi bu işi İlham Əliyev davam etdirir. Mehriban xanım Azərbaycanın adını bütün Avropada o qədər yüksəldib ki, hərdən fikirləşirəm, biz 10 milyonuq? Bəlkə çoxuq, mən saya bilmirəm? Hər yerə, haraya baxırsan, hansı Avropa ölkəsinə baxırsan, Mehriban xanım Azərbaycanın adını göylərə qaldırır.

Mehriban xanım, Allah Sizin də canınızı sağ eləsin, çox sağ olun. Bu il də əlamətdar hadisələr olacaq - "Əsrin müqaviləsi"nin 25 illiyi, Neft Daşlarının 70 illiyi. Arzu edirəm ki, Neft Daşlarının 70 illiyini yüksək səviyyədə keçirək. Çünki Neft Daşları dəniz neftinin başlanğıcını qoyan mənbədir. Ona görə də gərək biz Neft Daşlarına diqqəti heç vaxt azaltmayaq. Sağ olun.

* * *

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilən "Qızıl çinar" beynəlxalq mükafatının 2019-cu il üçün təqdimetmə mərasimi keçirildi.

Fondun prezidenti Mehriban Əliyeva milli musiqi irsimizin yaşadılması və dünyada tanıdılmasına xidmət edən layihələrdə fəal iştirakına və səmərəli əməkdaşlığına görə üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Əməkdar artist Fuad İbrahimova "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

**Mükafata görə minnətdarlığını bildirən Əməkdar artist Fuad İBRAHİMOV dedi:**



- Əziz Mehriban xanım.

Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz diqqətə, qayğıya, inama görə Sizə hədsiz dərəcədə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, məndə, əlbəttə ki, çox böyük məsuliyyət hissi oyadır.

**(davamı 4-cü səhifədə)**

# ABŞ-da keçirilən tədbirdə Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərindən danışılıb

**Azərbaycanın ABŞ-dakı səfirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir keçirib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə ABŞ-da yaşayan və fəaliyyət göstərən həmyerlilərimiz və səfirliyin əməkdaşları iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Elin Süleymanov əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyev barədə xatirələrini bölüşüb. Müasir, müstəqil və suveren Azərbaycan dövlətinin qurucusu Ümummilli Liderin müxtəlif dönəmlərdə verdiyi taleyüklü qərarlar və atdığı tarixi addımlardan söz açıb, Ulu Öndərin Azərbaycanla ABŞ arasında münasibətlərin genişlənməsi və möhkəmlənməsi istiqamətində gördüyü işlərin ikitərəfli münasibətlərimiz üçün möhkəm zəmin yaratdığını qeyd edib.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi istiqamətində gördüyü işlərə toxunan səfir ölkəmizin beynəlxalq aləmdə artan nüfuzundan söz açıb.

Daha sonra diplomat Azərbaycanın ABŞ-dakı səfirliyinin yerləşdiyi binanın ümummilli lider Heydər Əliyevin qərarı ilə alındığını diqqətə çatdırıb və bu binanın müstəqil Azərbaycan Respublikasının xaricdə diplomatik fəaliyyət üçün aldığı ilk mülk olduğunu vurğulayıb.

Uzun illərdir ABŞ-da yaşayan Azərbaycan icmasının fəal üzvlərindən olan Həbib Azərsina çıxış edərək Ümummilli Lider barəsində fikirlərini paylaşıb. Heydər Əliyevi hələ Sovet İttifaqı dövründən tanıdığını deyən H.Azərsina onun hər zaman vətənpərvərliyi, vətəninə, xalqına sevgisi ilə fərqləndiyini bildirib. ABŞ prezidentlərinin tərcüməçisi olaraq çalışmış H.Azərsina Ümummilli Lider kimi şəxsiyyəti tanıdığını və səfərlərdən birində ona tərcüməçilik etdiyini fəxrlə xatırlayıb.

Daha sonra Ümummilli Liderin anadan olmasının 96-cı ildönümü münasibətilə səfirliyin binasının ətrafında müxtəlif və rəngarəng güllər və çiçəklər əkilərək Ulu Öndərin əziz xatirəsi bir daha yad edilib. Beləliklə, ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə əkilən güllər Vaşinqtonda Azərbaycanı təcəssüm etdirən daha bir guşəni gözəlləşdirib.

Bundan başqa, Vaşinqtondakı İslam Mərkəzində yüzlərlə möminin iştirak etdiyi cümə namazından sonra ümummilli lider Heydər Əliyevin ruhuna dualar oxunub və ehsan süfrəsi təşkil olunub.

**AZƏRTAC**

# Türkiyə KİV-ləri ulu öndər Heydər Əliyevin doğum günü ilə bağlı geniş məlumatlar yayıb

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Türkiyənin aparıcı kütləvi informasiya vasitələrində geniş məlumatlar yayılıb.**

Məlumatlarda türkdilli oxucuların diqqətinə çatdırılır ki, Azərbaycan xalqının xilaskar oğlunun doğum günündə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, dövlət və hökumət nümayəndələri Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər. Ölkə vətəndaşları böyük bir sevgi ilə kütləvi şəkildə Fəxri xiyabana axın edərək Ulu Öndərə ehtiram göstəriblər. Bu barədə informasiya yayan KİV-lər xəbərləri çoxsaylı foto və videomateriallarla təqdim ediblər.

Aparıcı xəbər agentliklərində, televiziya kanallarında və qəzetlərdə yayılan məlumatlarda, həmçinin Türkiyədə keçirilən mərasimlərə dair informasiyalar yer alıb. Mövzu ilə bağlı yayılan xəbərlərlə www.trthaber.com, www.trtavaz.com.tr, www.star.com.tr, www.yeniakit.com.tr,www.turkiyegazetesi.com.tr, www.haberturk.com, www.haber3.com, www.haberek.com və s. saytlarda tanış olmaq mümkündür.

**AZƏRTAC**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*





**(əvvəli 3-cü səhifədə)**

Eyni zamanda, bir şuşalı kimi, Azərbaycana uğur gətirməyə və ölkəmizi xaricdə təmsil etməyə böyük təkan verir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə mən Almaniyada iki təhsil almışam və Fondun təşəbbüsü ilə xaricdə keçirilən çoxlu sayda konsertlərdə iştirak etmişəm və iştirakımız çox böyük uğurla keçib. Hər zaman ürəyimdə çox böyük bir arzu olub ki, göstərdiyiniz etimada görə Sizə şəxsən təşəkkürümü bildirim. Onu da qeyd etmək istəyirəm ki, 2018-ci il mənim həyatımda çox böyük rol oynadı. Fransanın paytaxtı Parisdə keçirilən çox nüfuzlu dirijorların beynəlxalq müsabiqəsində qalib oldum. Bundan sonra konsertlərin sayı dünyada çox artdı. Bunların hamısı Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə baş tutdu.

Çox sağ olun ki, varsınız. Biz həmişə sizinləyik. Biz sizi çox sevirik. Təşəkkür edirəm.

* * *

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət və qayğıya, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafına verdiyi töhfələrə görə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.



**Mükafatı qəbul edən Zərifə MƏMMƏDOVA təşəkkürünü bildirərək dedi:**

- Əziz Prezidentimiz, əziz Mehriban xanım.

Əvvəla, Mehriban xanıma böyük təşəkkürümüzü bildiririk ki, bizim işimizə qiymət verib, gözəl bir bina tikdirib. Demək olar ki, Mehriban xanımın gözü həmişə bizim uşaqlarımızın üstündədir. Çox sağ olun, Mehriban xanım.

İnanın ki, əgər Mehriban xanım bizim üçün, bizim uşaqlarımız, analarımız üçün bu gözəl binanı tikdirməsəydi, indiyə kimi uşaqlar evlərdə qalardı. Biz çox minnətdarıq ki, bizim üçün dünyada analoqu olmayan belə gözəl bina tikilib, orada uşaqlar üçün hər cür şərait yaradılıb. Mən, ilk növbədə, uşaqlarımızın, anaların adından, şəxsən öz adımdan Sizə sonsuz təşəkkürümü bildirmək istəyirəm. İndi bizim uşaqlarımız çox yerlərdə festivalda iştirak ediblər. Onlar 17 ölkədə böyük hədiyyələr, diplomlar alıblar. Avstriyanın paytaxtı Vyanada onlar dünyada analoqu olmayan teatr kimi ad qazanıblar, bizim uşaqlarımız idman yarışlarında, rəsm müsabiqələrində birinci yeri tutublar. Çox sağ olun. Bu, təkcə mənim yox, bütün valideynlərin, anaların mükafatıdır. Çox sağ olun, çox minnətdaram.

Sonra geniş konsert proqramı təqdim olundu. Konsertdə tanınmış incəsənət ustalarının ifaları maraqla qarşılandı.

**Xalq artisti Polad BÜLBÜLOĞLU dedi:**

- Cənab Prezident.

Əziz və hörmətli Mehriban xanım.

Bu gün biz Ulu Öndərimizin, sevimli insanın doğum günündə onun adını daşıyan Fondun 15 illiyini qeyd edirik.

Hörmətli Mehriban xanım, Azərbaycan aləmində çox gözəl deyim var: Deyirlər insan adı ilə böyüyür və adı ilə yaşayır. Sizin gözəl ananız, müdrik atanız Sizə çox gözəl bir ad verib. Siz doğrudan da mehribançılıqla çox böyük işlər görürsünüz və insanlar Sizi çox sevirlər. Mən inanıram ki, Sizin rəhbərliyiniz altında Heydər Əliyev Fondu hələ uzun illər çox işlər görəcək. Sizə müvəffəqiyyətlər, cansağlığı arzu edirəm və vaxtilə Heydər Əliyevin çox sevdiyi "Şən Azərbaycan" mahnısını oxumaq istəyirəm.

* * *

Daha sonra BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Ulu Öndərin əlyazmasını Heydər Əliyev Fonduna təqdim etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə görüşdülər.

**AZƏRTAC**



# Moldovada ulu öndərin anadan olmasının 96-cı ildönümü



**Cari ilin 10 may tarixində Azərbaycanın Moldovadakı Səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Moldova İqtisadiyyat və İnfrastruktur naziri Kiril Qaburiç, Moldovadakı Azərbaycanlıların Konqres nümayəndələri, Moldovada təhsil alan tələbələr, ictimai xadimlər, yerli KİV nümayəndələri iştirak ediblər.**

Əvvəlcə tədbir iştirakçıları səfirliyin binasında ucaldılan ulu öndərin büstü önünə çiçəklər düzüb, ümummilli liderin xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən səfir Qüdsi Osmanov müstəqil dövlətimizin qurucusu və memarı olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolu, həyata keçirdiyi islahatlar barədə iştirakçılara geniş məlumat verib.

O qeyd edib ki, 1993-cü ildə xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev getdikcə dərinləşən böhranın qarşısının alınmasına, ölkəmizin ağrılı problemlərinin aradan qaldırılmasına, Azərbaycan Dövlətinin qurulması və möhkəmlənməsinə nail olub. Diplomat onun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasətə toxunub, bu siyasətin nəticəsində ölkəmizdə bütün sahələrdə müşahidə olunan inkişafdan bəhs edib.

Daha sonra çıxış edən Moldova İqtisadiyyat və İnfrastruktur naziri Kiril Qaburiç Azərbaycanda iş fəaliyyəti zamanı insanların Heydər Əliyev şəxsiyyətinə xüsusi ehtiram və dərin hörmətlə yanaşdığını xatırlayıb: "Heydər Əliyev Azərbaycan üçün əvəzsiz işlər görmüşdür və Azərbaycan xalqı onun xidmətlərini unutmur, daim yad edir. İnsanlar onunla bağlı xatirələrini böyük qürurla bölüşürlər", - deyə nazir bildirib. O, ulu öndərin müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsində tarixi rolunu xüsusi qeyd edib.

Moldova Azərbaycanlıları Konqresinin rəhbəri Vüqar Novruzov ulu öndər Heydər Əliyevin dünya azərbaycanlıları diasporunun quruculuğunda əvəzsiz rolu və xidmətlərindən danışıb. O qeyd edib ki, hər bir xalqın tarixi və taleyində nadir insanlar olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də belə şəxsiyyətlərdəndir.



Daha sonra tarix elmləri doktoru Ruslan Şefçenko çıxış etmişdir. O, Heydər Əliyevin tarixi xidmətlərindən danışmış, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı gedən qanlı döyüşlərin Heydər Əliyevin yürütdüyü ağıllı və müdrik siyasət nəticəsində dayandırıldığını, Azərbaycan iqtisadiyyatının inkişafından, bir dövlət kimi dünya arenasında mühüm yer tutduğu barədə ətraflı danışmışdır.

Sonra Moldovada təhsil alan azərbaycanlı və xarici tələbələrin iştirakı ilə səfirlikdə "Heydər Əliyev - Azərbaycan dövlətinin banisi" adlı "dəyirmi masa" təşkil olunub. İştirakçılara Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirilib. Gənclər xarici qonaqlara Heydər Əliyevin Azərbaycan xalqının tarixində rolu və xidmətləri barədə məlumat veriblər.

**Qədir ASLAN,**
**"Respublika".**

# Ümummilli liderin xatirəsi İstanbulda yad edildi

**Heydər Əliyevin həyat və fəaliyyəti xalqa xidmət simvoludur. Ulu öndərin idarəetmə fəlsəfəsinin fonunda görülən işlər Azərbaycan xalqının milli dövlətçilik məfkurəsini daha da inkişaf etdirmişdir. Bu dahi şəxsiyyət Azərbaycanın inkişaf potensialını sistemləşdirərək milli maraqlarımızı müdrikliklə reallaşdıra bilmişdir.**



Qardaş Türkiyənin İstanbul şəhərindəki "Sarıyer" rayonunda yerləşən Heydər Əliyev parkında müstəqil Azərbaycanın qurucusu, müasir dövlətçiliyimizin memarı, zamanı qabaqlayan fenomen, milli inkişaf modelinin müəllifi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı tədbir keçirilib.

Azərbaycanın İstanbuldakı konsulluğunun təşkilatçılığı ilə keçirilən mərasimdə İstanbul "Sarıyer" şəhəri bələdiyyəsinin sədri və əməkdaşları, diplomatlar, rəsmi şəxslər, ziyalılar, Azərbaycanın dövlət təşkilatlarının Türkiyədəki nümayəndələri, KİV və QHT-nin nümayəndələri iştirak edirdilər.

Tədbirdə ilk öncə ulu öndər Heydər Əliyevin parlaq xatirəsi bir dəqiqəlik sükutla yad olundu və abidəsi önünə tər gül dəstələri düzüldü, vurğulandı ki, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərindən biridir. Azərbaycanın son yarım əsrinin bütün çalarları ilə zəngin olan möhtəşəm tarixi ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyev bütün şüurlu həyatını Vətəninə, canından artıq sevdiyi millətinə həsr etmiş, xalqının tükənməz sevgisini qazanmış, cahanşümul əməlləri ilə sağlığında ikən canlı əfsanəyə çevrilmişdir. Heydər Əliyev xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider zirvəsini fəth etmiş qüdrətli dövlət xadimi idi.

İstanbulun "Sarıyer" rayonundakı Heydər Əliyev parkındakı tədbir başa çatdıqdan sonra mərasim iştirakçıları bu ərazidəki Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün büstü önünə tər çiçəklər düzmüş, onun xatirəsini yad etmişlər.

**Esmira AZXAN,**
**"Respublika" qəzetinin**
**Türkiyədəki müxbiri.**

# Ulu öndərə ümumxalq məhəbbəti tükənməzdir

**Müasir Azərbaycan dövlətçiliyinin yaradıcısı, milli müstəqilliyimizin memarı, xalqımızın böyük oğlu, əbədiyaşar tarixi şəxsiyyət, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev işıqlı və mənalı ömrünü, Ulu Tanrı tərəfindən bəxş olunmuş istedad və bacarığını son nəfəsinədək xalqına, millətinə, ölkəmizin inkişafına, Azərbaycanın dünyada tanınmasına həsr etdi.**

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafına xidmət olmuşdur", - deyən ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə - istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxarıb. Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi kimi qiymətləndirilən bu dövr sadəcə təqvim göstəricisi deyil. Bu dövr Azərbaycan üçün yeni üfüqlər, yeni zirvələr deməkdir. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi, xoşbəxt gələcəyi olan bir dövlətdə yaşayır.

Beynəlxalq arenada Azərbaycanın imicini və nüfuz dairəsini genişləndirmək yolunda atdığı dahiyanə addımlar, beynəlxalq qurum və təşkilatlardakı tarixi çıxışları, Azərbaycan həqiqətlərini beynəlxalq kürsülərdə, aparıcı dövlətlərin başçıları ilə görüşlərdə dəmir məntiqə söykənərək fundamental qətiyyət və təmkinlə hərtərəfli analiz etmək bacarığı, tükənməz siyasi lider əzəməti Heydər Əliyevi dünya tarixində görkəmli simalardan birinə çevirdi.

Ulu öndərin siyasi, iqtisadi, mədəni və sosial-ictimai həyatımızın bütün sahələrində həyata keçirdiyi strateji islahatlar bugünkü Azərbaycanın inkişafının əsas dayaqlarıdır. Ulu öndərin həyat və fəaliyyəti Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Heydər Əliyevin Vətənimiz və xalqımız qarşısında ən böyük xidməti Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, dövlətimizi və dövlətçiliyimizi möhkəmləndirmək olub. Onun rəhbər kimi tarixi fəaliyyəti nəsillər üçün böyük bir məktəb və örnəkdir. Biz hələ sağlığında əfsanələşən Heydər Əliyevin böyüklüyünü zaman keçdikcə daha çox hiss edirik. Bu gün biz Heydər Əliyevin böyük zəhmət və hünərlə qurub-yaratdığı Azərbaycan dövlətini daha da inkişaf etdirməliyik. Bunu isə ulu öndərin ideyaları ətrafında sıx birləşməklə həyata keçirmək olar. Ulu öndərin azərbaycançılıq məfkurəsi müstəqillik illərində daha da inkişaf edib, dövlətimizin sarsılmaz və əsas dayaqlarındandır.

Ötən əsrin 90-cı illərində - ölkəmiz üçün olduqca mürəkkəb və gərgin bir dövrdə öz xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirən ulu öndər ölkəmizdə baş alıb gedən xaos və anarxiyaya qısa zaman kəsiyində son qoydu. Məqsədyönlü siyasətini həyata keçirməklə Azərbaycanı dünyanın hərtərəfli inkişaf edən dövlətləri sırasına çıxardı. Bu gün hər bir azərbaycanlı fəxrlə deyir ki, regionun lider dövləti olan Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əseridir.

Bu gün Azərbaycan Heydər Əliyevin ideyaları ilə özünün xoşbəxt gələcəyinə doğru inamla addımlayır. Dahi şəxsiyyət Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, dünya siyasətinin nəhənglərindən birinə çevirib. Ona görə də Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq öyünür, ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti sayəsində artıq müstəqil dövlətimiz, sosial-iqtisadi sabitliyimiz və dinamik inkişaf edən iqtisadiyyatımız vardır. Xalqımız əmindir ki, ulu öndərin quruculuq, inkişaf, tərəqqi xətti bundan sonra da uğurla davam etdiriləcək, Azərbaycanımızın ərazi bütövlüyü təmin olunacaq, əhalinin rifahı daha da yaxşılaşacaq.

**Oruc GÖYÇƏLİ,**
**Azərbaycan YB-nin üzvü,**
**"Qızıl qələm" mükafatı laureatı.**

# Əbədiyaşar lider

**Azərbaycanın müasir tarixinin 40 ilə yaxın bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Həmin dövrdə xalqımızın əldə etdiyi nailiyyətlərdə, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı uğurlara imzasını atan Heydər Əliyev fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi millətinin önündə həmişə cəsarətlə addımlayaraq müasir dövlətçiliyimizin banisi və qurucusu olaraq ulu öndər kimi yüksək zirvəyə ucalmışdır.**

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Ulu öndər fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan torpağının, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görüb. 1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail oldu ki, bu da milli şüurun oyanışı, milli ruhun yüksəlişi və mənəvi tərəqqi üçün güclü təkan idi.

Heydər Əliyev çox aydın hiss edirdi ki, kənd təsərrüfatına məqsədli vəsait qoymadan yüksək nəticələr əldə etmək mümkün deyil. Ona görə də bu istiqamətdə düşünülmüş, əsaslı tədbirlər ardıcıllıqla həyata keçirilməyə başlandı. Nəticədə doqquzuncu beşillikdə respublikanın iqtisadiyyatında illər boyu davam etmiş geriliyə son qoyulmuş, aqrar sahənin inkişafında yeni dönüş mərhələsi başlanmış, kənd təsərrüfatı istehsalının əsaslı yüksəlişi təmin edilmişdir. Həmin beşillikdə kənd təsərrüfatının inkişafının konkret yolları müəyyənləşdirilmiş və bu inkişafın dinamikliyi üçün əsaslı tədbirlər həyata keçirilmişdi. Məhz bu dövrdə yeni torpaq sahələrinin istifadəyə verilməsi, torpaq fondunun sağlamlaşdırılması, su təchizatının yaxşılaşdırılması sahəsində konkret tədbirlər görüldü və beləliklə də kənd təsərrüfatının intensiv inkişafı təmin edildi. Muğan-Salyan zonası rayonlarında meliorasiya qurğuları tikilməsinin miqyası genişləndirildi. Respublikanın qərb zonasında 60 min hektar sahəni əkin suyu ilə təmin edən Ağstafaçay dəryaçasının inşası başa çatdırıldı. Arazboyu zonada suvarma işlərinin inkişafına səmərəli təsir göstərəcək dəryaça-sugötürmə qurğusunun tikintisinə başlanıldı.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" 1975-ci il 9 iyul tarixli, həmçinin Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında qərarlar qəbul edilmişdir. Bu qərarların 1970-80-ci illərdə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyəti olmuşdur. Həmin illərdə respublikanın iqtisadi və sosial sahələrinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulmuş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində respublikada irriqasiya-meliorasiya işləri, eləcə də üzümçülükdə çox böyük uğurlar əldə edilmişdir. 1969-80-ci illərdə üzümçülüyün ərazi strukturu xeyli dəyişdirilmiş, yeni üzümçülük rayonları yaradılmışdır. Xüsusən dağ rayonlarında üzümçülük inkişaf etdirilmişdir ki, bu da onların iqtisadiyyatının möhkəmləndirilməsinə, mövcud əmək ehtiyatlarından daha səmərəli istifadə olunmasına müsbət təsir göstərmişdir. 1994-cü il dekabrın 23-də kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş respublika müşavirəsində diqqəti aqrar islahatların vacibliyinə yönəldən ulu öndər demişdi: "Aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm, eyni zamanda son dərəcə əhəmiyyətli, məsuliyyətli və taleyüklü məsələdir".

Bu müşavirədə irəli sürülmüş təkliflər, mülahizələr və tənqidi qeydlərlə əlaqədar "Aqrar islahatın əsasları haqqında" və "Kolxoz və sovxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanun layihələrinin işlənilməsi üzrə dövlət orqanlarının, kolxozçuların, icarədarların, fermerlərin, alimlərin və digər nümayəndələrin təmsil olunduğu tərkibdə komissiyanın yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 1994-cü il tarixli Sərəncamı imzalanmışdır. Bununla da aqrar islahatların həyata keçirilməsi üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində tarixi addımlar atıldı, 1995-ci il fevralın 18-də "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanunlar qəbul olundu.

Bu qanunların qəbul olumasının ardınca "Torpaq islahatı haqqında" Qanunun qəbul edilməsi ilə bağlı çoxsaylı ictimai müzakirələrin keçirilməsinə başlanıldı. Lakin o dövrdə torpaq islahatlarının hansı formada və hansı prinsiplər əsasında aparılması ilə bağlı fikirlər müxtəlif idi, ictimai rəy yekdil deyildi. Məsələn, torpaqların özəl mülkiyyətə deyil, uzunmüddətli icarəyə verilməsi, yaxud da yalnız təsərrüfatlarda işləyənlərə verilməsi və ya kənddə yaşayanlara verilməsi, yaxud da bütün əhaliyə paylanması kimi ən müxtəlif variantlar müzakirə olunurdu.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran ümummilli lider Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz, bütün bunlar Azərbaycanın həqiqətləridir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ən mühüm uğurlardan biri atəşkəsin əldə edilməsi olmuşdur. Belə bir faktı qeyd etməyə dəyər ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliklərə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanmış və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalanmışdır. İndi ölkə iqtisadiyyatının sürətli inkişafında mühüm amilə çevrilmiş Heydər Əliyevin neft strategiyası böyük uğurla həyata keçirilir.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu öndərin Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Heydər Əliyev fövqəlbəşər bir dühа kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yaşamaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə heykəl ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır.

Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanırıq ki, dövlətimiz milli öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən ləyaqətli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və müdrik rəhbərliyi qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini daha da möhkəmləndirəcəkdir.

Hazırda respublikamızın ictimai, siyasi, iqtisadi, mədəni və ideoloji həyatının bütün istiqamətlərində olduğu kimi, aqrar sektorda da ulu öndərimiz Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilməkdədir. Bu ardıcıllıq və prinsipiallıq isə Azərbaycan Respublikasının dinamik inkişafının əsasıdır.

**İsa MƏRDANOV,**
**Maştağa Kənd Təsərrüfatı Məhsulları İstehsalı Müəssisəsinin direktoru.**



# DAHİ ŞƏXSİYYƏT

**Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı, qoca Qafqazın bu bölgəsində yeni siyasi bir dövr, yeni təfəkkür mərhələsi başlandı və bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı.**

1990-cı illərin əvvəllərində, Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini əldə etdikdən sonra, yenidən çox böyük çətinliklərlə üzləşmişdi. Ölkə daxilində hakimiyyət uğrunda mübarizənin fonunda baş alıb gedən xaos və anarxiya respublikanı uçuruma sürükləyirdi. Belə ağır bir zamanda, dövlətin, millətin taleyi "olum, ya ölüm?" dilemması qarşısında qalanda, ölkənin ziyalıları üzlərini xalqın böyük oğluna - Heydər Əliyevə tutdu, onu Vətəni, milləti xilas etməyə qadir olan bir siyasi təşkilat yaratmağa, Azərbaycanın bütün mütərəqqi qüvvələrini öz ətrafında toplamağa, sıx birləşdirməyə dəvət etdilər.

Bəli, Xalq özünün sınanmış liderini hakimiyyətə gəlməyə, müstəqil Azərbaycan dövlətini xilas etməyə israrla dəvət etdi. Xalqın qəzəbindən qorxan səriştəsiz hökumət də Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edən ziyalıların səsinə səs verdi.

Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Milyonlarla insan onu qarşılamağa çıxmışdı, sözün əsl mənasında, "iynə atsaydın, yerə düşməzdi". Ümummilli lider xalqın gurultulu və sürəkli alqışları ilə təyyarədən endi. Bununla da, daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Qısa bir zamanda dahi rəhbərin siyasi iradəsi və xalqın dəstəyi sayəsində ölkədə əmin-amanlığa təhlükə törədən, müxtəlif siyasi maraqlara xidmət edən qanunsuz silahlı dəstələr ləğv edildi, ictimai-siyasi sabitlik bərqərar olundu. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəs elan olundu, sentyabrda isə dünyanın aparıcı neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda demokratik dövlət quruculuğu ilə məşğul olmaq, iqtisadi-siyasi islahatlar aparmaq üçün vaxt və imkan yarandı.

Ulu öndərin rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası hazırlandı və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olundu. Böyük peşəkarlıqla hazırlanmış əsas qanunumuz ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çəkmişdir. Ümummilli liderin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkənin demokratikləşdirilməsi iqtisadi islahatların sürətlə həyata keçirilməsi və siyasi islahatların genişlənməsi fonunda baş verirdi. Artıq, Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvüdür. Azərbaycanda ilk dəfə 1969-1982-ci illərdə hakimiyyətdə olan ulu öndər Azərbaycan xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olmuş, geniş vüsət alan inkişaf proseslərinə təkan vermişdir. XX əsr Azərbaycan tarixinin ən böyük, fenomen şəxsiyyəti kimi şərəfli ömür yolunu xalqının nicatına həsr etmiş ulu öndər Heydər Əliyev də məhz belə liderlərdən olmaqla, müasir dövlətçiliyimizin ideoloji-siyasi əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq onun qəlbində özünə möhtəşəm abidə ucaltmışdır.

İndi siyasi baxışlarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə real tarixi şans ötən əsrin ikinci yarısında - ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsindən sonrakı mərhələdə yaranmışdır.

Ulu öndərin respublikaya birinci rəhbərlik dövrü çağdaş tariximizə iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olmuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan vermişdir. Xalqına, onun keçmişinə, tarixinə, adət-ənənələrinə, milli dəyərlərinə qəlbən bağlı olan bir şəxsiyyətin bu ali kürsüyə yüksəlməsi o ağır imperiya dövründə Azərbaycanda bütün sahələr üzrə intibaha və milli özünüdərkə əsaslı zəmin yaratmışdır. Əslində, ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsi və sonrakı mərhələdə suveren milli təsisat kimi problemlərinin həllinə nail olması üçün real əsaslar məhz ötən əsrin 70-ci illərində formalaşdırılmışdır. Əgər ulu öndər Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə - 1969-1982-ci illərdə sosial-iqtisadi, mədəni yüksəliş üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı naminə aparılan işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik dövlət kimi mövcudluğu da şübhə altında qalardı.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini hələ 1969-cu ildə respublikaya birinci rəhbərlik dövründən qoymağa başlamış, ilk növbədə gələcək iqtisadi müstəqilliyə etibarlı zəmin formalaşdırmışdır. Ulu öndər Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinin icrasına başladıqdan dərhal sonra ictimai həyatın ən müxtəlif sahələrində köklü islahatların həyata keçirilməsinə, iqtisadiyyatın bütün sferalarının yüksək dinamizmlə inkişaf etməsinə nail olmuşdur. 60-cı illərin sonunda bir sıra iqtisadi göstəricilərinə görə keçmiş ittifaq miqyasında son sıralarda dayanan Azərbaycan qısa müddətdə tənəzzül mərhələsini geridə qoyaraq sürətli tərəqqi yoluna qədəm qoymuşdur.

Milli iqtisadiyyatda neft sənayesinin həlledici rolunu hələ o dövrdə müdrikliklə nəzərə alan böyük strateq Heydər Əliyev bu sahənin dinamik inkişafına xüsusi diqqət yetirmiş və neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olmuşdur. Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycan xalqının rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Həmin illərdə neft hasilatını durmadan artıran respublikamız neft elminin mərkəzi, Bakı isə neft akademiyası hesab edilirdi. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsində, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər məhz Azərbaycanın payına düşürdü.

Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Bu gün də mövcud iqtidarın monolit birliyi nəticəsində ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir. Dövlətimiz və xalqımızın həyatı üçün ən mühüm əhəmiyyət kəsb edən prinsipial məsələlərdə Prezident İlham Əliyev də Heydər Əliyevə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu öz məhsuldar fəaliyyəti ilə sübut edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, maddi və mənəvi mədəniyyətin bütün sahələrində istiqamətləndirici məfkurə olmalıdır. Əsrlərdən miras qalmış mütərəqqi mənəvi dəyərlər Azərbaycan xalqının milli mövcudluğunun və dövlətçiliyinin qarantına çevrilməlidir. Eyni zamanda, hər bir vətəndaş bu torpağa, vətənə, xalqa mənsubluğu, milli-mənəvi, dini dəyərləri ilə qürur duymalıdır.

Azərbaycan Prezidentinin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən fərman və sərəncamlar, Dövlət proqramları imzalaması onun yetişməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı, habelə qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır. Bütün bunlar, eyni zamanda, mənəvi yüksəlişə, intibaha xidmət edən mühüm addımlar kimi cəmiyyətin pozitiv ruhda inkişafına təkan vermişdir.

Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin əsasında xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Dövlət başçısının müasir azərbaycanlı təfəkküründə vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropanın liberal ideyaları üzvi vəhdət təşkil edir. Prezident İlham Əliyev mədəni, elmi, habelə yaradıcılıq sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməsində mühüm amildir.

Son illər bütün sahələrdə əldə edilən nailiyyətlər Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir. Bir zamanlar əlçatmaz olan, xəyal kimi görünən iri layihələrin real həyata vəsiqə alması, şəhərlərimizin, rayonlarımızın, hətta kəndlərimizin sürətlə abadlaşaraq göz oxşaması, insanların yaşayış səviyyəsinin ildən-ilə yaxşılaşdırılması çoxlarımız üçün adiləşib. Paytaxtla bölgələr arasında inkişaf fərqinin aradan qaldırılması ölkə rəhbərinin həyata keçirdiyi inkişaf strategiyasının düzgünlüyünü təsdiq edir və bu siyasətə alternativin olmadığını birmənalı sübuta yetirir. Bu gün Prezidentimizin apardığı dərin düşünülmüş, uzaqgörən daxili və xarici siyasət, onun xalqa olan səmimi məhəbbəti və doğma Vətənimiz naminə səmərəli fəaliyyəti hər birimizdə qürur hissi oyadır. Ulu öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsinə əsaslanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur. Azərbaycanın bütün dünya tərəfindən etiraf olunan dinamik inkişafı ilk növbədə vətəndaşlarımızın maddi rifah halının yaxşılaşmasına xidmət edir, ölkəmiz sürətli tərəqqi yolu ilə inamla addımlayır. Bu gün aksiom kimi qəbul olunan həqiqət ondan ibarətdir ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyası müstəqil Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətlərindən birinə çevirmişdir. Bunun nəticəsi olaraq ölkəmiz hazırda daha geniş geosiyasi arealda sülh, tərəqqi və sabitlik, iqtisadi əməkdaşlıq mərkəzi kimi tanınır. Əminliklə demək olar ki, Azərbaycan xalqının milli mənafeyinə cavab verən bu siyasət qarşıdakı illərdə də inamla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında sürətli inkişaf tempini qoruyub saxlayaraq qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır.

**VƏLİ AMANOV,**
**Əməkdar mühəndis, ixtiraçı.**

# Müasir Azərbaycan dövlətinin memarı

**Heydər Əliyev irsinin araşdırılması ilə məşğul olan bir çox müəlliflər ulu öndəri XX əsrin siyasət nəhəngləri — mənsub olduqları xalqlar üçün əvəzsiz xidmətlər göstərmiş Şarl de Qoll, Corc Vaşinqton, Uinston Çörçill, Konrad Adenauer və digərləri ilə bir sıraya qoyurlar. Amma bu şəxsiyyətlərin hər birinə böyük hörmət hissi ilə qeyd etməliyik ki, onlar yaşadıqları bir ictimai-siyasi formasiyanın verdiyi imkanlardan məxsus olduqları xalq üçün maksimum istifadə etməyə çalışmış və buna nail olmuşlar. Heydər Əliyev isə həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün titanik əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda özünün adını əbədi olaraq tarixə yazmışdır.**

Heydər Əliyevin hakimiyyətdə olduğu dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin bərpa edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Ulu öndərin Azərbaycana rəhbərliyinin az qala üçdə ikisi sovet dövrünə təsadüf etmişdir. Heydər Əliyev məhz bu illərdə, sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün göstərdiyi misilsiz xidmətləri ilə tarixdə layiqli yerini qazanmışdır.

Bu parlaq şəxsiyyətin həmin illərdəki fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və hörmət ilə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. Ulu öndərin xidmətlərini təhlil etdikdə aydın olur ki, bu dərin zəka sahibi hələ dövlət təhlükəsizlik orqanı kimi çox sərt rejimli bir strukturda çalışanda belə milli mənsubiyyəti ilə fəxr etmiş, qəlbində Azərbaycanın müstəqillik arzularını yaşatmışdır. Bu arzular ulu öndərin bütün fəaliyyəti boyu çox aydın şəkildə özünü göstərmişdir.

Heydər Əliyevin dövlətçilik səriştəsi, dərin zəkası, fenomenal yaddaşı, insanları idarə etmək bacarığı həmin vaxt SSRİ-nin tərkibində olan bütün xalqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının çarpazlaşan nöqtələrini çox gözəl bilən Heydər Əliyev dərin zəkası, siyasi uzaqgörənliyi və polad məntiqi ilə hər şeyi yerinə qoya bildi. Təcrübəli dövlət xadiminin böyük səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, bədnam qonşularımız tərəfindən torpaqların işğalının qarşısı alındı, Azərbaycanın yaxın gələcəkdə dünya siyasətində geosiyasi mövqeyini müəyyən edəcək siyasi-iqtisadi konsepsiya işlənib hazırlandı. Heydər Əliyev müstəqil Azərbaycanı siyasi fırtınaların cəngindən alıb, onun strateji mövqelərini bərpa etdi, sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə neft strategiyasını işləyib hazırladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Vaxtı ilə "Neft daşları"nın salınması Azərbaycanı Xəzərin hökmdarı etmişdisə, Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" də müstəqil ölkəmizi dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi.

Ulu öndərin neft strategiyasının yeni bir mərhələsi Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri BTC 2006-cı ildə işə salınanda BP şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq deyirdi: "BTC-nin fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Bu o demək idi ki, dünyanın enerji xəritəsini dəyişən BTC timsalında onun yaradıcısı, Azərbaycanın dahi oğlu Heydər Əliyev idi.

Ümummilli lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzuolunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasına çalışmağın vacib olduğunu qeyd edir və buna səy göstərirdi.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu.

Postsovet məkanında ilk dəfə Azərbaycanda Heydər Əliyevin göstərişi ilə torpaq islahatına başlandı. Kolxoz və sovxozların şəxsi, fermer təsərrüfatlarına çevrilməsi kənd təsərrüfatının inkişafında yeni üfüqlər açdı.

Ulu öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa, iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı.

Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda real əksini tapdı.

Ulu öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini yenə təsdiqlədi. Bunun üçün elə də böyük vaxt lazım olmadı. Əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan Prezident İlham Əliyev ulu öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir. Dövlətimizin başçısının rəhbərliyi altında qazanılan nailiyyətlər bu gün də davam edir və xalqımızı xoşbəxt gələcəyə doğru aparır.

Bu uğurların əsasını qoymuş ulu öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

**Əlixan ƏLİZADƏ,**
**"AZ Logistika & Management Services" MMC-nin direktoru.**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib



**Mayın 11-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Suraxanı rayonu ərazisində ağacəkmə aksiyası keçirib.**

AZƏRTAC xəbər verir ki, aksiyada Baş nazirin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin doğum gününü böyük təntənə ilə qeyd etdiyini bildirib. O deyib ki, YAP da bu əlamətdar hadisəni müxtəlif tədbirlərlə qeyd edir və bu, ənənə halını alıb: “Ağacəkmə aksiyası da bu tədbirlərdən biridir. Ənənəvi olaraq biz hər il belə aksiya keçiririk. İndi də Suraxanı rayonunun bu ərazisində yaşıllıq salınmasında iştirak edirik. Bununla, bir tərəfdən ulu öndər Heydər Əliyevin unudulmaz xatirəsini yad edirik, digər tərəfdən yaşıllıq zolağını salmaqla Bakının ekologiyasının yaxşılaşdırılmasına öz töhfəmizi veririk”.

Əli Əhmədov qeyd edib ki, YAP böyük bir gücü özündə ehtiva edir. Bu güc Azərbaycanın inkişafı naminə öz imkanlarını həmişə səfərbər edir. Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiyanın reallaşmasında partiyamızın nümayəndələri həmişə böyük fədakarlıq nümunələri göstəriblər. Bu aksiyada iştirak etməklə bizim partiyamız Prezidentimizin həyata keçirdiyi ekoloji siyasətə dəstək verir. Bütün bunlar partiyamızın mahiyyətindən irəli gəlir. Biz qurucu, yaradıcı partiyayıq. YAP öz gücünü, mütəşəkkilliyini Azərbaycan dövlətinin qüdrətinin daha da artmasına səfərbər edib. YAP təkcə siyasi proseslərdə iştirak etməklə öz missiyasını bitmiş hesab etmir, həm də cəmiyyət üçün əhəmiyyətli olan bütün proseslərdə bundan sonra da fəal iştirak edəcək.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib ki, respublikamızda ekoloji vəziyyətin yaxşılaşdırılması, geniş yaşıllıqlar zolaqlarının salınması ulu öndər Heydər Əliyevin hər zaman diqqətində idi. Ulu Öndər fəaliyyətində bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının bu təşəbbüsləri nəticəsində respublikamızın müxtəlif ərazilərində, o cümlədən Bakı şəhərində minlərlə ağac əkilib, geniş yaşıllıq zolaqları salınıb. Bugünkü aksiya nəticəsində əkilən ağaclara da daim qulluq ediləcək, müasir suvarma sistemi ilə təmin olunacaq.

Qeyd edək ki, aksiya zamanı 1,5 hektar ərazidə 1000-dən çox ağac əkilib.

**AZƏRTAC**



# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

**Mayın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində növbəti həyətin açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.









Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 37, 39, 41, 47, 49 və Qara Qarayev prospekti 59 ünvanlarında 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 mini futbol meydançası, 2 şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, 10 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.



Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin İDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**

# “Böyük şəxsiyyətin sevdikləri” adlı tədbir

**Mayın 10-da Səbail rayonu 239 saylı orta məktəbdə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir keçirildi.**



Tədbirdən öncə məktəbin pedaqoji kollektivi və tədbir iştirakçıları Heydər Əliyevin Badamdar qəsəbəsindəki abidəsi önünə tər gül dəstələri qoyaraq ulu öndərin unudulmaz xatirəsini dərin ehtiramla yad etdilər.

Dövlət himnimiz səsləndikdən sonra mərasimi giriş sözü ilə açan **239 saylı orta məktəbin direktoru Sədaqət Əzimova** Azərbaycan dövlətinin müasir tarixində əvəzolunmaz xidmətləri olmuş, müstəqilliyimizin xilaskarı kimi tarixə düşən Heydər Əliyevin ictimai-siyasi, dövlət xadimi kimi Azərbaycan xalqı qarşısındakı xidmətlərindən geniş danışdı. Sədaqət müəllimə qeyd etdi ki, bu gün bütün Azərbaycan xalqı kimi məktəbimizin kollektivi də bu əlamətdar hadisəni-ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü sevinc və ruh yüksəkliyi ilə qeyd edir. Biz ulu öndərin Azərbaycana rəhbərliyi dövrlərində xalqımız üçün, ölkəmizin dirçəlişi və inkişafı naminə gördüyü böyük, əvəzolunmaz işləri minnətdarlıq hissi ilə xatırlayırıq. O, həyatımızın bütün sahələrində vətənin çiçəklənməsi, milli mənafenin qorunması yolunda dövlətçiliyimizə sədaqətlə xidmət etmişdir. Xatırladım ki, Heydər Əliyev bu barədə demişdir: “Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır”.

Bu gün Azərbaycanın keçdiyi həyat yolunu bir daha gözümüz önündə canlandırsaq, görərik ki, ulu öndər xalqı, vətəni qarşısında nə qədər işlər görmüşdür. Onun mənalı, zəngin həyat yolu hər birimiz üçün bir məktəbdir. Müstəqil Azərbaycanın yaşaması, dünyada qüdrətli bir ölkə kimi təşəkkülü üçün məhz Heydər Əliyevə borcluyuq. 1993-cü ilin iyununda Azərbaycan xalqı özünün tarixinin ən ağır bir dönəmində, dövlətçiliyimizin dağılıb məhv olması ərəfəsində yenə də Heydər Əliyevə üz tutdu, onu təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Xalqının çağırışına heç vaxt biganə qalmayan dahi şəxsiyyət Heydər Əliyev xalqın səsinə səs verdi. Naxçıvandan Bakıya gəldi. Az bir zaman kəsiyində ölkəni başının üstünü almış bütün bəlalardan xilas etdi, vətəndaş qarşıdurmasının qarşısı alındı, sabitlik bərqərar oldu və respublikamız sürətli inkişaf yoluna qədəm qoydu.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə bütün sahələrlə yanaşı, ölkənin təhsil sistemi də inkişaf etmişdir. Milli təhsilimiz həyata keçirilən islahatlar sayəsində məzmun və keyfiyyətcə yeni bir inkişaf dönəminə qədəm qoymuşdur. “Təhsil millətin gələcəyidir” deyən dahi rəhbər bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Bu gün sevinirik ki, milli təhsilimizə qayğı onun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən müasir dövrün tələbinə uyğun uğurla davam etdirilir. Bu gün ölkəmizdə yüzlərlə yeni, müasir tipli məktəblərin tikilib istifadəyə verilməsi bunun əyani göstəricisidir. Şagirdlərin bu gün belə müasir, hər cür şəraitə malik məktəblərdə oxuması, təlim-tərbiyə alıb, ölkəmizə layiq vətənpərvər ruhda böyümələri də Heydər Əliyevin o vaxtlar təməlini qoyduğu milli təhsil siyasətinin məntiqi nəticəsidir.



Sədaqət Əzimova onu da qeyd etdi ki, Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı məktəbin fəaliyyət planı əsasında tədbirlər nəzərdə tutulub. Məktəbin ibtidai sinifləri öz ənənəsinə sadiq qalaraq Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı tədbirlər keçirmişlər. “Böyük şəxsiyyətin sevdikləri” başlığı altında keçirilən bu tədbirdə məktəbin ibtidai sinif şagirdləri ulu öndərin vətənə, xalqa, ömür-gün yoldaşı Zərifə Əliyevaya, musiqiyə, idmana, heykəltəraşlığa, bəstəkarlığa və digər sahələrə olan dərin sevgisindən ibarət kompozisiyalar nümayiş etdirdilər və bunlar əyani şəkildə videoçarx vasitəsilə tədbir iştirakçılarına göstərildi. Videoçarxda Səməd Vurğunun “Azərbaycan” şeiri Heydər Əliyevin ifasında səsləndirildi. Bundan başqa, Heydər Əliyevin Azərbaycanın böyük dramaturqu Hüseyn Cavid, dahi bəstəkar Üzeyir Hacıbəyov, Tofiq Quliyev, heykəltəraş Ömər Eldarov, Məmmədhüseyn Şəhriyar, Səttar Bəhlulzadə (heykəltəraş) sənətinə, 7 rəqəminə olan sevgisi də videoçarxda nümayiş olundu.

Sonra çıxış edən Səbail rayonu Badamdar icra nümayəndəsi Natiq Abbasov, Badamdar Bələdiyyəsinin sədri Təzəxan Məmmədov da ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışdılar və onun siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanımızın bütün sahələrdə nail olduğu inkişafını, möhtəşəm uğurları vurğuladılar. Onlar tədbirin baş tutmasında əməyi olan məktəb rəhbərliyinə, müəllim və şagirdlərə minnətdarlıqlarını bildirdilər.

**Əli SADIQOV,**
**“Respublika”.**

# Azərbaycan XİN Ermənistanla atəşkəsin əldə edilməsinin 25 illiyi ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan və Azərbaycan arasında atəşkəsin əldə edilməsinin 25 illiyi ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.**

1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan arasında atəşkəsin əldə olunmasından 25 il ötür. Münaqişə zonasında atəşkəsin elan edilməsi birmənalı şəkildə bütün hərbi fəaliyyətin dayandırılması, işğalçı qüvvələrin geri çəkilməsi, beynəlxalq sülhməramlı qüvvələrin yeridilməsi, kommunikasiyaların bərpası, məcburi köçkünlərin geri qayıtması və münaqişənin yekun həlli üçün danışıqların davam etdirilməsi kimi məqsədlərlə əlaqələndirilib. Bu, o deməkdir ki, atəşkəs yuxarıda qeyd edilən məqsədlər kontekstində kompleks yanaşmanı nəzərdə tutur. Yəni, atəşkəsə riayət olunması təkcə atəşin dayandırılması deyil, həmçinin hərbi qüvvələrin münaqişə zonasından çıxarılmasını və işğal vəziyyətinin möhkəmləndirilməsinə xidmət edən fəaliyyətdən, o cümlədən məcburi köçkünlərin qayıdışına maneə olan hərəkətlərdən çəkinilməsini nəzərdə tutur.

Atəşkəsin əldə edilməsinə baxmayaraq, ötən 25 il ərzində Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində tarixən yaşayan azərbaycanlıların etnik təmizlənməsi ilə nəticələnən, beynəlxalq tanınmış ərazilərimizin beşdəbirinin Ermənistan tərəfindən işğalı hələ də davam edir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərində qanunsuz mövcudluğunu davam etdirməkdədir. Dünya ictimaiyyətinin tələbləri, o cümlədən beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına cavabdeh olan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr təcavüzkar Ermənistan tərəfindən rədd edilir. ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin başçılarının da dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaradılmış status-kvo dayanıqlı deyil və qəbuledilməzdir.

Atəşkəs, həmçinin münaqişənin həlli üçün danışıqların sürətləndirilməsini nəzərdə tutur. Aydındır ki, atəşkəs münaqişənin həlli deyil, o, münaqişənin həllinə aparan yolda müvafiq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün şərait yaradır. Lakin bütün bu illər ərzində Ermənistan münaqişənin həlli üzrə nəticəyə yönəlik substantiv danışıqların aparılmasından və beynəlxalq ictimaiyyətin işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması tələbindən davamlı imtina edir.

Ermənistan öz əhalisini və beynəlxalq ictimaiyyəti yanıltmaq cəhdlərindən əl çəkərək təcavüz və etnik təmizləmə siyasətinə son qoymalı, öz beynəlxalq öhdəliklərinə əməl etməli və münaqişənin ən qısa zamanda həlli üzrə aparılan danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməlidir.

Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması, etnik təmizləməyə məruz qalan azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının sülh şəraitində birgəyaşayışının təşviq olunması Ermənistan və Azərbaycan arasında normal qonşuluq münasibətlərinin bərpa olunmasının və bölgədə davamlı sülhün, təhlükəsizliyin və inkişafın təmin edilməsinin əsasını təşkil edir.

**AZƏRTAC**

# Kiyevdə insult keçirən Azərbaycanın Milli Qəhrəmanı Zabit Quliyevin müalicəsi ciddi nəzarətə götürülüb

**Ukraynanın paytaxtı Kiyev şəhərində insult keçirən Milli Qəhrəmanımız Zabit Quliyevin müalicəsi Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa tapşırığı əsasında ciddi nəzarətə götürülüb. Bu barədə AZƏRTAC-a açıqlamasında Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev məlumat verib.**

Səfir bildirib ki, hadisə baş verəndən sonra Z.Quliyevin ilkin müalicə aldığı xəstəxanada olub, həkimlərlə danışıqlar aparılıb. “Sonradan Milli Qəhrəmanımızın peşəkar həkim müayinəsində müalicə alması üçün o, mayın 11-nə keçən gecə A.P.Romodanova adına Neyro-Cərrahiyə İnstitutuna yerləşdirilib. Yenidən müayinəsi aparılıb. Həkimlər Zabil Quliyevin vəziyyətini orta ağır qiymətləndirirlər”, - deyə səfir əlavə edib.

A.Xudiyevin sözlərinə görə, Milli Qəhrəmanımızın müalicəsi üçün lazım olan bütün tədbirlər davam etdiriləcək.

Qeyd edək ki, tədbirlərdə iştirak etmək üçün Kiyevə gələn Z.Quliyevin səhhəti mayın 9-da qəflətən pisləşib. O, dərhal xəstəxanaya yerləşdirilib.

**AZƏRTAC**


Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

AÇIQ TENDER ELAN EDİR

Tender 3 (üç) lot üzrə keçirilir:
Lot-1. Təmir işlərinin görülməsi;
Lot-2. İnventarların alınması;
Lot-3. Avadanlıqlara servis xidmətinin göstərilməsi

Tenderdə iştirak haqqı:
Lot-1 - 300 manat
Lot-2 - 200 manat
Lot-3 - 100 manat

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, malgöndərənin (podratçının) aidiyyəti işlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba iştirak haqqı ödəməklə Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 (əlaqələndirici şəxs: Ceyhun Valehov; telefon: (+99412) 493-82-66) ünvanından ala bilərlər:

Adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T CTREAZ22
Adı: Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
VÖEN: 1701344461
Hesab:
AZ91CTRE00000000000004828501
Büdcə gəlirinin təsnifatı kodu: 142340
Büdcə səviyyəsinin kodu fond: 7

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox, yəni azı 60 (altmış) bank günü olmalıdır);
5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 25 iyun 2019-cu il saat 15:00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 4 iyul 2019-cu il, saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 5 iyul 2019-cu il tarixdə saat 11:00-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində açılacaqdır.

Səfərbərlik və Hərbi Xidmətə
Çağırış üzrə Dövlət Xidmətinin
Tender Komissiyası.

# İlham ƏLİYEV:
# “Biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur”

**(əvvəli 11 may tarixli sayımızda)**

Qeyd etmək istərdik ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məcburi köçkünlərlə son görüşlərindən birində söylədiyi fikirlər, Azərbaycan dövləti və dövlət başçısının hər zaman qaçqın və məcburi köçkünlər məsələsini diqqətdə saxlaması ilə bağlı dilə gətirdiyi məqamlar bir daha yuxarıda deyilənlərin əyani təsdiqidir.

Mehriban xanım “Həm Azərbaycan dövləti, həm Prezident, həm də şəxsən mən, bütün bu problemlərlə gündəlik fəaliyyətimizdə məşğul oluruq. Çıxış yolları da var. Bu günə qədər çox işlər görülüb, 300 mindən çox qaçqınımız, məcburi köçkünümüz mənzillə, evlə təmin olunub. Amma yenə də bu problem var. Biz gərək özümüz üçün proqram yaradaq ki, bütün bu məsələləri ardıcıl olaraq həll edək və bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə təmin edək. Mən bu yolda əlimdən gələn hər şeyi etməyə hazıram. Çox qısa bir zamanda normal ev şəraiti ilə təmin olunacaqsınız”, - deyərək qaçqınlar və məcburi köçkünlər məsələsinin, onların problemlərinin həllinin bir nömrəli məsələlər sırasında dayandığını bir daha əyani şəkildə ortaya qoymuş oldu.

Eyni zamanda, ötən bir il, o cümlədən bu ilin ilk ayları ərzində Azərbaycan vətəndaşlarının, pensiyaçıların, tələbələrin, magistr və doktorantların təqaüdlərinin artırılması yönündə önəmli addımlar atıldı. Ümumiyyətlə, yuxarıda qeyd edildiyi kimi, ölkə Prezidenti İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin mahiyyətində əhalinin aztəminatlı təbəqəsinin rifahının davamlı olaraq yüksəldilməsinin dayandığı hamıya məlumdur. Bu baxımdan, bu məsələyə ötən bir il ərzində də xüsusi önəm verildi. Belə ki, ötən ilin dövlət büdcəsinin xərclərinin 31,7 faizi və ya 7,2 milyard manatı sosialyönümlü xərclərin payına düşdü ki, bu da 2017-ci illə müqayisədə 7,6 faiz çox idi. Yəni əmək pensiyalarının artırılması 1,2 milyon pensiyaçını və ya onların 94 faizini əhatə etdi. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 6,2 faiz, yaşa görə pensiyanın orta aylıq məbləği isə 6,7 faiz artdı. Bununla yanaşı, bu ilin əvvəllərində, fevral və mart aylarında ölkə Prezidentinin imzaladığı fərman və sərəncamlarla minimum əməkhaqqı 50 manat artırılaraq, 130 manatdan 180 manata, pensiyaların minimum həddi isə 44 manat artırılaraq, 116 manatdan 160 manata qaldırıldı. Təxminən 100 minə yaxın tələbənin təqaüdü əhəmiyyətli dərəcədə yüksəldi. Ancaq görünən budur ki, Azərbaycan dövləti, ilk növbədə dövlət başçısı atılan addımlara rəğmən, bu istiqamətdə görülən işlərin, həyata keçirilən artımların hələ də yetərli, qaneedici olmadığı qənaətindədir. Dövlət başçısı son çıxışlarından birində yenidən bu məsələyə toxunaraq bir daha bildirdi ki, minimum əməkhaqqı və minimum pensiyanın qaldırılması daimi proses olmalıdır.

## Çoxmənzilli binalarla bağlı problemin həlli yönündə atılan vacib addımlar əhalinin mənzil şəraitinin yaxşılaşması siyasətinin mühüm istiqamətidir. Bu istiqamətdə görülən işlər ildən-ilə genişlənir

Bu yerdə qeyd etmək yerinə düşər ki, Azərbaycanda, xüsusilə də Bakı şəhərində tikilən, vətəndaşların istifadəsinə verilən çoxmənzilli yaşayış binaları ilə bağlı yaranan problemlər neçə illər idi ki, hər bir kəsi ciddi narahat edirdi. Çünki bu mənzillərin böyük əksəriyyəti sənədləşdirilmir, bir çox hallarda haqqını tələb edən mənzil sahibləri get-gələ salınır, incidilir, bürokratik süründürməliklər hökm sürür, həmçinin işıq, qaz və sair problemlər yaşanırdı. Odur ki, dövlət başçısı bu problemin həlli məqsədilə bu ilin fevral ayında “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” çox mühüm Fərman imzaladı. Heç şübhəsiz ki, bu fərman həmin sahədə illərdir həllini gözləyən problemə son qoyacaq, artıq sənədsiz və qeydiyyatsız bina qalmayacaq. Mənzil sahibləri bundan sonra heç vaxt belə problemlərlə qarşılaşmayacaqlar. Ümumilikdə, bu fərman 400-dək yaşayış kompleksinə şamil olunur, 50 minədək mənzili əhatə edir.

Onu da qeyd etmək istərdik ki, artıq sözügedən fərmanın icrası istiqamətində də addımlar atılmaqdadır. Aidiyyəti qurumlar bu məsələnin həlli yönündə məlum fərmandan irəli gələn müddəaların icrasına başlamışlar və bu baxımdan inanmaq istərdik ki, nəhayət bu məsələ ilə də bağlı ortada olan problemlərin aradan qaldırılması, insanlarımızın öz mənzillərinə sahiblənməsi, orada tam rahat şəkildə həyatlarını, yaşayışlarını davam etdirməsi mümkün olacaq...

Bu məsələ ölkə Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında da dilə gətirildi. Dövlət başçısı çıxışında “Çoxmənzilli binalarda yaşayan vətəndaşlar əziyyət çəkirdilər, çünki o binalarla bağlı sənədləşmə işləri aparılmamışdır, müəyyən çatışmazlıqlar var idi. Ona görə bu məsələ ilə bağlı da fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesi başlamışdır”, - deyərək bu yöndə işlərin daha da sürətlə getməsi və qüsurların tezliklə aradan qaldırılması üçün növbəti dəfə göstəriş verdiyini bildirdi.

Bununla yanaşı, son illər cəmiyyətimizdə ən çox müzakirə olunan məsələlərdən biri də sosial evlərin tikilməsi məsələsidir. Çünki hələ də bəzi kateqoriyadan olan insanlarımız, vətəndaşlarımız özlərinin mənzil, yaşayış təminatlarını həyata keçirməkdə çətinlik çəkirlər. Hələ də mənzillərə ehtiyacı, tələbatı olan insanlarımız az deyil. Odur ki, Azərbaycan dövləti, ölkə Prezidenti bu məsələdə də öz vətəndaşının yanında olduğunu nümayiş etdirməklə, Bakı şəhərinin bəzi ərazilərində, o cümlədən Yasamal rayonunda mənzilə ehtiyacı olan və kifayət qədər sərfəli şərtləri, əlçatanlığı özündə ehtiva edən sosial evlərin, yaşayış binalarının tikintisinə qərar verdi. Artıq bu istiqamətdə görülən işlər göz qabağındadır.

Eyni zamanda, ötən ilin sonlarında, dekabr ayının 26-da ölkə Prezidenti və Birinci vitse-prezident Yasamal rayonunda inşa edilən yaşayış kompleksinə baş çəkərək, bir daha həm dövlətin, həm özlərinin bu məsələyə nə dərəcədə mühüm önəm verdiklərini ortaya qoymuş oldular. Ölkə Prezidenti və birinci xanım həmin gün Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Yasamal yaşayış kompleksinin açılışında iştirak etdilər. Açılış zamanı görülən işlər barədə məlumat verilərək qeyd edildi ki, yaşayış kompleksinin ümumi sahəsi 11,6 hektardır. 2016-cı ilin dekabrında kompleksin ilk doqquzmərtəbəli yaşayış binasının və ərazidə yerləşən ümumtəhsil məktəbinin binasının təməli qoyulub. Ərazidə planlaşdırma sənədi üzrə 29 yaşayış binası inşa olunub. Kompleksin baş planı üzrə 5 binada bu ilin sentyabrında “Elektron hökumət” portalı üzərindən “Güzəştli mənzil” sistemi vasitəsilə 324 mənzil satışa çıxarılıb. Daha sonra ölkə Prezidentinin və birinci xanımın iştirakı ilə yeni yaşayış kompleksinin ümumi sahəsi 15,4 hektar olacaq növbəti mərhələsinin təməlqoyma mərasimi keçirildi. Binalar üzrə mənzillərin ümumi sayı 2200-dən çoxdur. Bu mənzillər də tam təmirli, mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif ediləcək...

Həmçinin Hövsan qəsəbəsində bu yöndə ikinci layihə icra edilir. Hazırda orada 3 minə yaxın mənzil inşa olunur. Ona görə bir daha qeyd etmək istərdik ki, ölkə Prezidentinin təşəbbüsü ilə yaradılan MİDA məhz sosial məna daşıyan bir layihədir. Sosial evlərin tikintisi minlərlə ailənin mənzillə təmin edilməsi üçün şərait yaradır. Bu, minlərlə iş yeri yaradır və eyni zamanda inşaat sektoruna böyük təkan verir. Yəni, təkcə bir yaşayış kompleksində 3 minə yaxın mənzilin tikintisi, görün, nə qədər insanı bu işlərə cəlb edir, nə qədər sahibkarı işlə təmin edir...

## Tarixdə analoqu olmayan fərman və ya problemli kreditlər məsələsinə son qoyuldu...

Son bir ildən danışarkən, problemli kreditlərin həlli istiqamətində atılan tarixi addımı, ölkə Prezidentinin məlum fərmanını qeyd etməmək, xatırlatmamaq mümkün deyil. Belə ki, 2015-ci ilin fevral və dekabr devalvasiyalarından sonra ölkənin bank sektorunda ciddi problemlər yaşanmağa başlandı. Xüsusilə, banklardan kredit götürmüş vətəndaşlarla, yüz minlərlə insanlarla banklar arasında ciddi narazılıqlar, problemlər üzə çıxmış, özünü göstərmişdi. Vətəndaşların, bank müştərilərinin böyük əksəriyyəti, xüsusilə dollarla verilən kreditlərin ödənilməsində ciddi sıxıntılarla üz-üzə qaldılar. Dəfələrlə bu problemin, bu məsələnin ən müxtəlif səviyyələrdə müzakirə edilməsinə, çıxış yollarının aranmasına, bir sıra təkliflərin verilməsinə baxmayaraq, problemin həlli yönündə banklarla vətəndaşlar arasında qarşılıqlı anlaşma mümkün olmurdu. Xüsusilə də, bank sektoru bu məsələnin həlli istiqamətində dövlətin dəstəyinə, sağlamlaşdırma siyasətinə rəğmən irəliyə doğru heç bir addım atmırdı. Nəticədə də vətəndaşlar get-gələ salınır, incidilir, yüz minlərlə insan məhkəmə qapılarında qalır, məhkəmə çəkişmələrində vaxt, zaman itirməli olurdu. Hələ məhkəmə yolu ilə evləri, mülkləri əllərindən alınan insanları demirəm. Təbii ki, Azərbaycan dövləti, xüsusilə də dövlət başçısı və birinci xanım bu məsələyə çox həssaslıqla yanaşdılar. Dövlət başçısının və birinci xanımın tapşırığı və təşəbbüsü ilə ötən ilin payızından müvafiq qurumlar bu məsələnin müzakirələrinə başlayaraq, konkret addımların atılmasına doğru hərəkətə keçdilər. Bu yöndə ilk sevindirici xəbər isə fevral ayının 25-də ölkə Prezidentinin sosial məsələlərlə bağlı keçirdiyi müşavirədə verildi. Dövlət başçısı çox yaxın günlərdə problemli kreditlər məsələsində konkret addımların atılacağını bildirdi və cəmi 3 gün sonra - fevral ayının 28-də “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” tarixi fərman imzaladı. Bu fərman ölkədə sosialyönümlülük və humanizm prinsiplərinin əsas götürülərək, əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirildiyini bir daha göstərdi. Eyni zamanda, ölkə Prezidentinin yaradıcı şəxslərlə görüşdə vurğuladığı kimi, problemli kreditlərlə bağlı fərman dünyada analoqu olmayan fərman kimi tarixə düşdü. Fevralın 28-də imzalanan Prezident fərmanı ilə, nəhayət, yüz minlərlə insanı, yüz minlərlə ailəni, bütövlükdə 800 mindən artıq vətəndaşı əhatə edən problemə son qoyuldu. Bu fərmanla, həmçinin 311 mindən artıq məhkəmə işi geri çəkilmiş oldu. Artıq fərmandan irəli gələrək, bu istiqamətdə konkret addımların atılmasına da başlanılıb. Konkret olaraq, kompensasiya alacaq şəxslərin sayı 602.347 nəfər təşkil edir və artıq 22 aprel 2019-cu il tarixindən kredit təşkilatları və poçt rabitəsi milli operatoru vətəndaşlara kompensasiya ödənişlərinin verilməsinə başlayıblar ki, bununla da bütün ödənişlərin fərmana uyğun olaraq cari ilin may ayında yekunlaşdırılması planlaşdırılır.

Hesab edirəm ki, bu addımlardan sonra Azərbaycanın bank sektoru da öz fəaliyyətinə bir daha nəzər yetirməli, xüsusilə kredit faizləri məsələsində ciddi dəyişikliklər etməli, azaltmalar nəzərdə tutmalıdır. Çünki indiki faiz dərəcələri həddindən artıq yüksəkdir və onun aşağıya endirilməsi lazımdır. Eyni zamanda, hər zaman dediyim kimi, bank sektoru real iqtisadiyyata vəsait qoymalı, bu prosesdə daha yaxından və daha aktiv şəkildə iştirak etməlidir, istehlak kreditlərinə həddindən artıq üstünlük verməməlidirlər.

## Kölgə iqtisadiyyatı, vergi sistemində inqilabi addımlar...

Ötən bir ildən danışarkən, heç şübhəsiz ki, çox cəsarətli və qətiyyətli addımlardan biri kimi, ölkənin vergi sistemində, gömrük orqanlarında həyata keçirilən, islahatları, o cümlədən kölgə iqtisadiyyatı ilə mübarizə istiqamətində görülən işləri qeyd etmək gərəkir. Çünki uzun illər bu sahələrdə mövcud olan problemlər özünü nümayiş etdirməkdə, cəmiyyətdə xeyli suallar doğurmaqda idi. Təbii ki, Azərbaycan dövləti və ölkə Prezidenti də biganə qala bilməzdi. Həmçinin, kölgə iqtisadiyyatının mövcudluğu dövlət, cəmiyyət üçün ciddi sıxıntılar yaşadır. Ötən ilin oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı vergi orqanlarında ciddi struktur islahatları aparıldığını qeyd edərək, burada əsas vəzifənin kölgə iqtisadiyyatının aradan qaldırılması olduğunu vurğuladı.

Dövlət başçısı “Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə kölgə iqtisadiyyatı var, amma bunun dərəcəsi var. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər”, - deyərək heç kimə heç bir güzəşt edilmədiyini və edilməyəcəyni bəyan etdi. Dövlət başçısı, eyni zamanda, bəzi sahibkarların bir sıra dövlət məmurlarına arxalandığını, ancaq o dövrün artıq keçdiyini diqqətə çəkdi.

O, çıxışında “Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq”, - deyə fikirlərini tamamladı.

Odur ki, bu sahədə kadr və struktur islahatlarına start verilməklə, qısa zaman kəsiyində mühüm adımların atılmasına, müsbət nəticələrin əldə edilməsinə nail olundu. Xüsusilə, vergi sistemində əsl şəffaflıq təmin edildi. Qeyd edək ki, vergi sistemində əldə edilən uğurlar bu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da önə çəkildi. Bildirildi ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Həmçinin, qeyd edildi ki, aparılan islahatlar, görülən tədbirlər nəticəsində kölgə iqtisadiyyatına böyük zərbə vurulub və bu istiqamətdə işlər bundan sonra da davam etdiriləlidir. Ümumiyyətlə, vergi sahəsində islahatlar nəticəsində bu ilin üç ayında büdcə daxilolmaları böyük dərəcədə artıb, vergi və gömrük orqanları plandan əlavə 200 milyon manatdan çox vəsait toplayıblar. Bunlar hamısı bir daha şəffaflıq hesabına, aparılmış siyasət nəticəsində mümkün olub...

2019-cu ilin geridə qalan aylarına gəlincə, Nazirlər Kabinetinin məlum iclasında da qeyd edildiyi kimi, ilin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər potensialımızı gücləndirib və əlavə maliyyə resursu əldə etmək üçün şərait yaradıb. Belə ki, birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsi vergi sahəsində, 50 milyon manatdan çox hissəsi isə gömrük sahəsində əldə edilib. Burada sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergi toplaya biliblər. Bu da məhz islahatların bariz nümunəsidir. Artıq sahibkarlar da bilirlər ki, onlar dövlətin vergisini tam ödəməlidirlər. Yəni, şəffaflıq və yeni yanaşma nəticəsində ilin birinci rübündə böyük məbləğdə əlavə vəsait əldə edilib və bu, imkan yaradıb ki, bu vəsaitlər ilk növbədə sosial sahəyə yönəlsin, necə ki, yönəldilib...

## Struktur islahatlarının yeni mərhələsi...

Son bir ildən bəhs edərkən, aparılan struktur islahatlarından da danışmamaq mümkün deyil. Dövlət idarəetməsinin səmərəliliyini, effektivliyini artırmaq üçün struktur islahatları, struktur dəyişiklikləri önəmli məsələlərdəndir. Odur ki, xüsusilə son bir ildə bu istiqamətdə çox önəmli addımlar atılmaqda və onların ilkin müsbət nəticələri də özünü göstərməkdədir. Belə ki, ölkə Prezidentinin imzaladığı müvafiq fərman və sərəncamlarla ötən bir il ərzində bir sıra dövlət qurumu ləğv edildi, bir neçə qurum bir sıra nazirliklərin, o cümlədən İqtisadiyyat, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərkibinə birləşdirildi. Ölkə Prezidenti 9 avqust tarixində əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzaladı. Fərmana əsasən, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması məqsədilə Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” publik hüquqi şəxs dünyada analoqu olmayan “ASAN Xidmət”in “ABAD”dan sonra yeni bir tərəfdaşı və müttəfiqi (DOST Agentliyi) yaradıldı.

Artıq bu qurumun da işləkliyini təmin etmək, fəaliyyətini genişləndirmək və sürətləndirmək üçün müvafiq addımlar atılmaqda, “DOST” mərkəzləri açılmaqdadır. Bunlar isə nəticədə vətəndaş məmnunluğunu təmin etmək üçündür. Vətəndaş məmnunluğundan danışarkən, onu da mütləq qeyd etmək istərdik ki, bu il bölgələrdə daha beş “ASAN xidmət” mərkəzinin yaradılması nəzərdə tutulur və beləliklə, onların sayı 20-yə çatacaq. Həmçinin, Nazirlər Kabinetinin iclasında vurğulandığı kimi, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki “ASAN xidmət”in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. “ASAN xidmət” məhz ona görə yaradılıb ki, rahatlıq və şəffaflıq olsun, növbədə gözləmə və heç bir pozuntu olmasın. Əslində, buna da nail olunub, “ASAN xidmət”in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq onu da nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə paytaxtda da yeni mərkəzlərin açılmasına ehtiyac duyulur və verilən məlumatlara görə, artıq Bakı şəhərində əlavə iki “ASAN xidmət” mərkəzinin yaradılması gözlənilir...

Eyni zamanda, ölkə Prezidenti tərəfindən Sosial Tədqiqatlar Mərkəzinin, o cümlədən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və icbari tibbi sığorta ilə bağlı məsələləri tənzimləmək üçün “TƏBİB”in yaradılması istiqamətində müvafiq fərmanlar imzalandı. Bu qurumların da yaxın zamanlarda tam gücü ilə fəaliyyətə başlayacağı və müstəqil Azərbaycanın inkişafına müsbət töhfələr verəcəyi gözlənilir...

## 1,7 milyonluq artım və ya 10 milyonuncu Azərbaycan vətəndaşı...

Onu da fəxr və qürur hissi ilə vurğulamaq gərəkir ki, ötən 15-16 il ərzində ölkə əhalinin sayı 1,7 milyon artıb. Dünyanın bir çox ölkələrində, o cümlədən qabaqcıl və inkişaf etmiş bir sıra Avropa ölkələrində əhali artımı, demoqrafik inkişaf sahəsində ciddi geriləmələr və bununla əlaqədar ciddi narahatlıqlar yaşandığı halda, Azərbaycanda bu istiqamətdə də artım, müsbət irəliləyiş baş verdi və verməkdədir. Düzdür, əhali artımı, demoqrafik inkişaf özü ilə bərabər bir sıra məsələlərin həllini vacib etsə də, ancaq bu fakt, bu məqam həm də xalqımızın, dövlətimizin gələcək milli demoqrafik təhlükəsizliyinə təminat verir. Əhali artımı əlverişli demoqrafik şərait, həm də milli siyasi təhlükəsizlik deməkdir. Heç təsadüfi deyil ki, bu il yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda dövlət başçısı özü də bu məqama xüsusi diqqət ayıraraq, qeyd etdi ki, bu, çox gözəl göstəricidir. Dövlət başçısı fikirlərini davam etdirərək “Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər...”, - deyə sözlərinə əlavə etdi.

Çox sevindirici və hər birimizi qürurlandıran bir məqam - aprelin 6-da saat 03:30-da Bakı şəhərində ölkənin 10 milyonuncu sakini doğuldu. Rauf Həsənovun və Nigar Ocaqovanın ailəsində Azərbaycanın 10 milyonuncu vətəndaşı, ölkənin birinci xanımının adı verilmiş balaca Mehriban Rauf qızı Həsənova dünyaya gəldi. Bununla əlaqədar elə həmin gün ölkə Prezidenti və birinci xanım Mehriban Əliyeva Azərbaycan xalqını təbrik etdilər.

Yəni, bütün bunlar onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa iqtisadi, sosial vəziyyətlə bağlıdır. Bütün bunlar həm də onun göstərir ki, əhali artımı, demoqrafik inkişaf məsələsi də Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri və ən başlıcalarındandır.

## Zəfərlərdən növbəti zəfərlərə...

Beləliklə, müstəqil Azərbaycanımız, dövlətimiz, xalqımız ölkə Prezidentinin son bir illik fəaliyyəti ilə tarixi bir mərhələni, 11 aprel seçkilərindən sonrakı bir ili geridə qoydu. Ötən bir ildə Azərbaycanın bütün sahələrində dinamik inkişaf təmin edildi, ictimai-siyasi sabitlik qorunub, saxlanıldı. Azərbaycan regionun, yerləşdiyi coğrafiyanın sabitlik və təhlükəsizlik adası kimi, özünü bütün hərbi, siyasi, iqtisadi qlobal kataklizmlərdən qorudu, beynəlxalq mövqelərini gücləndirdi. Ölkənin dövlət büdcəsi ötən ilin yayında aparılan dürüstləşdirmə nəticəsində iki milyard manat, eyni zamanda, bu il əhəmiyyətli dərəcədə artırılaraq, 25 milyardı ötdü. Bununla yanaşı, 2006-cı ildə Dünya Bankının “Doing Business” hesabatında 98-ci yerdə qərarlaşan ölkəmiz aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda 25-ci yerdə qərarlaşdı. Həmçinin, Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə dünyanın məşhur rəy-sorğu şirkətlərindən olan “Opinion Way” şirkətinin apardığı və bu günlərdə açıqladığı sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını ölkə Prezidentin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Yəni, sorğunun nəticələrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Bütün bunlar isə ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər olub. Hesab edirəm ki, bu soğru və onun nəticələri ölkədə həyata keçirilən daxili və xarici siyasətin necə böyük miqyası əhatə etdiyini bir daha açıq şəkidə ortaya qoyur.

Eyni zamanda, ötən bir il - bütövlükdə son 26 il Azərbaycan xalqının seçiminin nə qədər doğru, düzgün olduğunu və onun öz seçimində yanılmadığının əyani təsdiqi oldu. Bir insan, bir Azərbaycan vətəndaşı, bir ziyalı olaraq, qürur hissi keçirirəm və taleyimdən də çox razıyam ki, hər zaman olduğu kimi, müstəqillik illərində, o cümlədən son 26 ildə də dövlətimlə, dövlətçiliyimizlə bir olmuşam, dövlətimə, dövlətçiliyimizə xidmət etmişəm. İstər 1993-cü ilin məlum hadisələri və prezident seçkiləri zamanı, istərsə də 2003-cü ilin Azərbaycan xalqı və dövlətçiliyi üçün çox mühüm anlar təşkil edən prezident seçkiləri zamanı öz qələmimlə, öz yazılarımla ulu öndərimizə, cənab Prezident İlham Əliyevə öz münasibətimi, açıq mövqeyi ifadə etmişəm. Ona görə tam qətiyyətlə və tam əsasla, mənəvi haqla deyə bilərəm ki, bu bir il və ümumiyyətlə, 1993-cü ilin iyun ayından, o cümlədən 2003-cü ilin oktyabrından başlanan, vüsət alan bu yol, bu mərhələ xalqımızın, müstəqil dövlətimizin tarixində qalacaq, xatırlanacaq, elmi-tədqiqat əsərlərinin mövzusu olacaq, daim işıqlandırılacaq və yaddaşlara, tarixə qızıl hərflərlə həkk olunacaq bir yol, bir mərhələ, bir dönəmdir. 1993-94-cü illərdən başlanan, yol alan sabitlik, inkişaf, tərəqqi yolu, islahatlar prosesi 2003-cü ildən daha da sürətləndirilərək, son bir ildə, o cümlədən artıq ilk 4 ayını başa vurduğumuz 2019-cu ildə özünün ən yüksək səviyyəsinə qalxdı. Ötən 26 il ərzində, eləcə də, son bir il ərzində görülən işlər, əldə edilən nailiyyətlər, qələbələr, zəfərlər nəticə etibarı ilə ölkəmizin, müstəqil Azərbaycanımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti hədəflərə çatmasında, yeni zəfərlər əldə etməsində baza rolunu oynayacaq.

Bu baxımdan, İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da bildirildiyi kimi, həyata keçirilən işlərin davamlı, nəzərdə tutulan addımların daha uğurlu olması, növbəti hədəflərə daha tez çatılması üçün islahatların davam etdirilməsi lazımdır. Daha ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Cənab Prezidentin qeyd etdiyi kimi, “Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək...”.

Odur ki, İlham Əliyevlə növbəti hədəflərə və zəfərlərə doğru, müstəqil Azərbaycan!. Bu gün Azərbaycanın, Azərbaycan dövlətinin, Azərbaycan xalqının taleyi çox möhkəm və etibarlı əllərdədir. Bu etibarlı əllər isə dövlət başçısının, yenidən prezidentliyinin 100 gününə həsr etdiyim yazımda da qeyd etdiyim kimi, bundan sonra da Azərbaycanı, Azərbaycan xalqını və Azərbaycan dövlətini zəfərlərdən zəfərlərə, qələbələrdən qələbələrə, uğurlardan uğurlara doğru aparacaq! ■



**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Ukraynada tədbir

Anım tədbirində Azərbaycanın Ukraynadakı səfirliyin əməkdaşları, SOCAR-ın Ukraynadakı nümayəndəliyinin, Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin, Kiyev Azərbaycanlıları Konqresinin, Ukrayna Azərbaycanlıları Gənclər Birliyinin təmsilçiləri, iş adamları, diaspor nümayəndələri, soydaşlarımız ulu öndərin heykəli önünə tər çiçəklər düzməklə Heydər Əliyevin xalqımızın ümummilli lideri olduğunu bir daha nümayiş etdiriblər.



Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev çıxış edərək ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışıb. Qeyd edib ki, ümummilli lider hələ sağlığında canlı əfsanəyə çevrilib. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə daha da artır. Səfir qeyd edib ki, ulu öndər Heydər Əliyev XX və XXI əsrin siyasi arenasında fenomenal yaddaşı, dəmir iradəsi, müdrikliyi və uzaqgörənliyi ilə böyük şöhrət qazanmış dahi şəxsiyyətdir.

Daha sonra çıxış edən Kiyev Azərbaycanlıları Konqresinin sədri Oleq Krapivin, Poltava Vilayət Şurasının deputatı Fəxrəddin Muxtarov, Ukrayna Azərbaycanlıları Gənclər Birliyinin sədri İlhamə Allahverdiyeva, iş adamı İlqar Abbasov, diaspor fəalı Şakir Yəhyayev vurğulayıblar ki, dünya azərbaycanlılarının vahid dövlətçilik məfkurəsi ətrafında birləşməsində ulu öndərin tarixi xidmətləri olub. Qeyd ediblər ki, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə tarixi qayıdışından sonra böyük inamla dünya azərbaycanlılarının bir amal və bir məslək uğrunda fəal mübarizə aparmasına çalışıb və öz dühasının gücü ilə bu çətin işin öhdəsindən uğurla gəlib.

**Möhsüm QƏDİROĞLU,**
**"Respublika" qəzetinin Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri.**

# KƏND TƏSƏRRÜFATI NAZİRİ İNAM KƏRİMOV AĞSUDA FERMERLƏRLƏ GÖRÜŞÜB

**Ağsu rayonunda Kənd Təsərrüfatı naziri İnam Kərimovun sədrliyi ilə aqrar sahədə mövcud vəziyyət və qarşıda duran vəzifələr mövzusunda fermerlərlə görüş keçirilib.**



Ağsu Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, rayon icra hakimiyyəti strukturunun məsul şəxsləri, nazirliyin tabeli qurumlarının və Dövlət Aqrar İnkişaf Mərkəzlərinin nümayəndələri və bu rayonda kənd təsərrüfatının müxtəlif sahələrində çalışan fermerlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ağsu rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev bildirib ki, ölkədə kənd təsərrüfatının inkişafına geniş dövlət dəstəyi mövcuddur. Ənvər Seyidəliyev qeyd edib ki, məhz dövlətin diqqət və qayğısı nəticəsində son illərdə rayonda taxılçılıq, meyvəçilik, baramaçılıq və heyvandarlıq daha da inkişaf edib.

Kənd Təsərrüfatı naziri İnam Kərimov müşavirədə çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Nazir bildirib ki, ölkədə aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib: "Cənab Prezident tərəfindən həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Taxılçılıq, toxumçuluq, heyvandarlıq, arıçılıq, şəkər çuğunduru və pambıqçılığın inkişafı üçün subsidiya verilir. O cümlədən, aqrar sahədə texnika təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Biz fəaliyyətimizdə kəndli və fermerlərə yaxınlıq, düzgün və səmərəli idarəçilik, innovasiyaların tətbiqi prinsiplərini əsas götürürük. Bu cür görüşlərin keçirilməsində məqsəd fermerlərin qayğı və problemlərini dinləmək, təxirəsalınmaz tədbirlər görməkdir".

Nazir Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı mövcud vəziyyət, qarşıda duran vəzifələr, görülən işlər barədə məlumat verib.

Görüş iştirakçıları məşğul olduqları sahə ilə bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, Kənd Təsərrüfatı naziri İnam Kərimov aprel-may aylarında Saatlı, Sabirabad, Ucar, Qəbələ, Salyan, Neftçala, İsmayıllı rayonlarında fermerlərlə səyyar görüş keçirib. Fermerlərlə səyyar görüşlər davam edəcək.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Milli mədəniyyət incilərimiz britaniyalıların qəlbini fəth edir

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kral ailəsinin üzvlərinin şərəfinə ənənəvi olaraq təşkil edilən "Vindzor Kral Atçılıq Şousu" 2019-cu ilin 9 may tarixində start götürmüşdür.**

2014-cü ildən etibarən ölkəmizin dəvət aldığı bu beynəlxalq atçılıq şousu qədim və unikal mədəniyyətimizin tanıdılması üçün son dərəcə əhəmiyyətli platformaya çevrilmiş, nümayəndə heyətimizin hər il nümayiş etdirdiyi bənzərsiz şou-proqramlar və performanslar bu möhtəşəm tədbirin ayrılmaz hissəsi kimi qəbul edilmişdir.



Milli sərvətimiz olan Qarabağ atlarının qorunub saxlanılmasına və məşhurlaşdırılmasına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali dəstəyi sayəsində son illər ərzində mili at cinslərimizin Azərbaycan brendi kimi dünyada tanıdılması istiqamətində önəmli işlər görülür. Bu tədbirlər sırasında "Vindzor Kral Atçılıq Şousu"nda Qarabağ atlarının füsünkar gözəlliyinin nümayiş etdirilməsi xüsusi yer tutur.

Builki "Vindzor Kral Atçılıq Şousu"nda ölkəmizi növbəti dəfə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi və rəqs ansamblı təmsil etmiş, artıq ənənəvi olaraq öz çıxışları ilə hər kəsi valeh etməyi, hər bir tamaşaçını heyrətləndirməyi bacarmışlar.

Oman Sultanlığını, Birləşmiş Ərəb Əmirliklərini, Macarıstanı və Böyük Britaniyanı təmsil edən digər atçılıq şousu iştirakçıları fonunda təmsilçilərimizin milli geyimlərimizdə çıxışları xüsusilə fərqlənmiş, çoxsaylı tamaşaçı kütləsinin xüsusi rəğbətini qazanmışdır.

2019-cu ildə Birləşmiş Krallığın ən qüdrətli taxt-tac sahibi kimi tarixə düşmüş Kraliça Viktoriyanın xatirəsinə həsr olunmuş bu tədbir üçün nümayəndə heyətimiz tərəfindən xüsusi olaraq "Azərbaycanın kəlağayısı və Qarabağ atları" adlı şou-kompozisiya hazırlanmışdır. Azərbaycan xalqının çoxsaylı maddi və mənəvi sərvətlərindən ikisinin vəhdətindən formalaşan bu kompozisiyanın əsasını artıq Vindzor tamaşaçılarına çox yaxşı tanış olan, burada özünə heyranlar ordusu qazanmış, çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, eləcə də Azərbaycan qadınlarının ənənəvi baş örtüyü, ismət və gözəllik rəmzi olan kəlağayı təşkil etmişdir.

Şou aparıcısının təmsilçilərimizin möhtəşəm çıxışını təqdim etməzdnən əvvəl şou-kompozisiyanın əsas elementlərindən birini təşkil edən 1500 ildən çox tarixə malik Azərbaycan kəlağayısının hələ iki əsr öncə - 1851-ci ildə Londonda keçirilmiş böyük sərgidə Kraliça Viktoriyaya hədiyyə edilməsinin vurğulanması böyük maraqla qarşılanmışdır.

Milli musiqi alətlərimiz - balabanda, tütəkdə, zurnada, tarda, kamançada, nağarada ifa olunan, xalqımızın kod yaddaşının daşıyıcıları - milli rəqsimiz yallının, gənc muğam ustası Mirələm Mirələmovun ifasında "Ay Laçın" xalq mahnısının və Emin Sabitoğlunun bəstələdiyi "İncəbellim" musiqisinin ecazkar sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli və çılğın rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində nümunəvi çıxışlarından, alov püskürənlərin qeyri-adi perfomanslarından ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçısını sözün əsl mənasında ovsunlamışdır.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış şou-kompozisiyanın quruluşçu rejissoru - Azərbaycan Respublikasının əməkdar artisti Nicat Kazımov, xoreoqrafı - Azərbaycan Respublikasının əməkdar artisti Nailə Məmmədzadə, süvarilər dəstəsinin rəhbəri - Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi Azər Həmzəyev, Alov şou qrupunun rəhbəri isə Rasim İskəndərlidir.

7 dəqiqə davam edən şou müddətində süvarilərimizin başları üzərində Azərbaycan Respublikasının və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaları, rəqqaslarımızın ifasında qılıncoynatma səhnələri, kəlağayımızın xalqımızın sülhsevərlik simvollarından biri olmasının - döyüş meydanında Azərbaycan qadını tərəfindən kəlağayının yerə atılması ilə savaşa son qoyulması adətinin nümayiş etdirilməsi, meydandakı reklam lövhələrinin üçrəngli bayrağımızın rənglərinə boyanması diqqəti xüsusi cəlb etmişdir.




Şou-proqram tədbir iştirakçıları tərəfindən böyük coşğu ilə qarşılanmış, əksəriyyəti britaniya aristokratiyasından ibarət olan böyük tamaşaçı kütləsinin zövqünü oxşamış, tamaşaçılar ayağa qalxaraq təmsilçilərimizi sürəkli alqışlarla yola salmışlar.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# "Azərsun Holdinq" ümummilli liderin xatirəsini silsilə tədbirlərlə andı

Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar "Azərsun Holdinq" hər il olduğu kimi silsilə tədbirlər keçirir. Ulu Öndərin ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi, adıçəkilən Şirkətlər Qrupunun quruluşu və inkişafı üçün verdiyi dəstək daim "Azərsun" ailəsinin qəlbində yaşayır. ümumilli liderimizin anım tədbirləri çərçivəsində Azərsun Holdinqin rəhbərliyi və kollektivi Ulu Öndərin məzarını ziyarət edərək, heykəli önünə əklil qoyub. Daha sonra "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozal oftalmoloq-alim, akademik Zərifə Əliyevanın və görkəmli dövlət xadimi Əziz Əliyevin məzarlarını ziyarət edərək xatirələrini dərin ehtiramla yad edib.




Ümummilli Liderin anım tədbirləri çərçivəsində şirkətlər qrupu tərəfindən ehtiyacı olan insanlar üçün müxtəlif sosial layihələr həyata keçirilib. Qeyd edək ki, "Azərsun Holdinq" tərəfindən Ulu Öndərin xatirəsinə həsr olunmuş anım tədbirləri davam edir. ■

# Azercell-in dəstəyi ilə Sumqayıtda kibertəhlükəsizlik təlimləri təşkil olunub

**İnternetdən istifadə arealının genişlənməsi nəticəsində uşaqların, yeniyetmələrin üzləşə biləcəyi təhlükələri müəyyənləşdirmək və onları aradan qaldırmaq üçün "Azercell Telekom" MMC "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlimlərini davam etdirir.**

Kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadənin cəmiyyət üçün ən aktual məsələlərdən birinə çevrildiyini nəzərə alan şirkət layihə çərçivəsində indiyədək ölkəmizin müxtəlif bölgələrində məktəblilər, valideynlər və müəllimlər üçün təlim sessiyaları təşkil edib. Növbəti təlimlərdən biri Sumqayıt şəhəri 31 saylı orta məktəbdə baş tutub. 6-9-cu sinif şagirdlərini, eləcə də onların müəllim və valideynlərini əhatə edən təlimlərdə iştirakçılara internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məlumatlar, məktəbdənkənar təhdidlərin tanınması və onlarla mübarizə yolları haqqında məsləhətlər verilib. "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən keçirilən və 140 nəfərin iştirakı ilə baş tutan təlimlərdə sosial şəbəkələrdən səmərəli istifadə ilə bağlı tövsiyələri, uşaqlar üçün yaradılmış resursların siyahılarını, uşaqlara və böyüklərə internetdən təhlükəsiz istifadənin əsaslarını təlqin edən materiallar təqdim olunub.




Qeyd etmək istərdik ki, ölkəmizdə kibertəhlükəsizlik sahəsində səmərəliliyin və maariflənmə səviyyəsinin artırılması və texniki hazırlığın yüksəldilməsi məqsədi ilə mart ayında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən baş tutan "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində də "Azercell Telekom" MMC-nin təşkilatçılığı ilə silsilə təlimlər keçirildi.

Onu da vurğulayaq ki, kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə məsələlərinə xüsusi önəm verən Azercell "Universal Müdafiə", "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərinin də yer aldığı "Azercell Plus Təhlükəsizlik" proqramını istifadəyə verib. Bu proqram uşağın sosial şəbəkələrdə paylaşımlarını, dostlar siyahısındakı dəyişiklikləri izləməyə, onun qoşulduğu qruplardan xəbərdar olmağa, həmçinin yerini müəyyənləşdirməyə və onun üçün təhlükəsiz ərazi yaratmağa imkanı verir.

Qeyd etmək istərdik ki, ötən il Azercell "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" layihəsi ilə "İlin Korporativ Sosial Məsuliyyət Proqramı (Avropa üzrə)" nominasiyasında qalib seçilərək, Bürünc "Stevie" mükafatı qazanıb.

TƏKRAR

## Gədəbəy Şəhər İnzibati Ərazi Dairə Nümayəndəliyi 2019-cu il ərzində Gədəbəy şəhərində mənzil fondunun təmirinə dair görüləcək işlər ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1. Kommunal mənzillərin təmiri.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu M.Rəsulzadə küçəsi 34 ünvanında yerləşən Gədəbəy Şəhər İƏD-dən (əlaqələndirici şəxs: X.S.Sadıqov, tel.: 5-01-53) ala bilərlər.

**Lot-1 – 60,00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Gədəbəy şəhər İƏD orqanı.*
*Gədəbəy şəhər İƏD kitab N2513932*
*Hesab: AZ40CTRE 00000000000002513932*
*VÖEN: 5900075171*
*Bank: Kapital Bankın Gədəbəy filialı*
*Kodu: 200811*
*VÖEN: 9900003611*
*Müxbir/hesab:*
*AZ41NABZ01360100000000003944*
*SWİFT BİK FİİBAZ 2 X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətlərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 10 iyun 2019-cu il saat 17:00-dək təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti 20 iyun 2019-cu il tarixədək təqdim olunmalıdır.

Yuxarıda göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılır.

Təklif zərfləri 21 iyun 2019-cu il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Lənkəran Mərkəzi Rayon Xəstəxanası

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Lot 1 - Avadanlıqlara xidmət**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, Nizami küçəsi 67 (Əlaqələndirici şəxs: AĞAYEV QADİR MİRNAĞI OĞLU, telefon: +9940252544947) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 10 AZN**

*Bank rekvizitləri:*
*Hesab:*
*AZ25CTRE00000000000002122031*
*Fond 7Y*
*Büdcə səviyyə kodu: 142340*
*VÖEN: 2600164831*
*VÖEN: 1401555071*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*M/H: AZ80NABZ01350100000000014944*
*S.W.İ.F.T: CTREAZ 22*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10.06.2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20.06.2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Nizami küçəsi 67 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 21.06.2019-cu il saat 10:00 tarixində Lənkəran şəhəri, Nizami küçəsi 67 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ELAN

29 iyun 2019-cu il tarixdə saat 11:00-da "Vulkan" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcək. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

**1.** Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2018-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə hesabatı və balansın təsdiqi.

**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbəsi (Səhmdar cəmiyyətin inzibati binası).*

**"Vulkan" ASC-nin idarə heyəti.**

Xasayev Yaşar Kamal oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 12.07.2014-cü ildə verilən RX 0452979 saylı Çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Bakı şəhəri, Səbail r-nu, Litvin Babayev küçəsi,1.

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin bölgə müxbiri Vəli Vəliyev Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova, əmisi**

**VAQİF BABAŞOVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**"P-Aqro" MMC-nin Biləsuvar filialının direktoru Şakir Sultanov və filialın kollektivi, MMC-nin baş direktoru Azər Əlizadəyə, atası**

**ƏLİ VƏLİ oğlunun**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Əli SADIQOV**

● **Çapa imzalanmışdır**
**11.05.2019**